Xan qızı Natavanın doğulduğu ulu diyar, İbrahim xanın qılınc oynatdığı əziz şəhər, igidlərin Cıdır düzündə qurşaq tutduqları, güləşdikləri, at çapdıqları müqəddəs torpaq, xarıbülbülün yeganə bitdiyi əziz Şuşa, azadlığın mübarək!

Bu məqalədə, əsasən, şuşalıların 30 il müddətində Şuşadan ayrı düşmələrinə rəğmən o yerin adətlərini bu gün necə yaşada bilmişlər? Şuşalıların ağasaqqala, ulu əcdadlara olan münasibəti hansı şəkildə yaşamışdır? – kimi suallara cavab tapmağa çalışacağıq.

Maraqlıdır, bu günə kimi yurdlarından ayrı düşən şuşalılar öz adətlərini qoruya biliblərmi? Böyük fəxarət hissi ilə deyərdik ki, 30 ilə yaxın bir müddətdə elindən-obasından ayrı düşən şuşalılar öz adətlərini heç də unutmadılar. Bu müddətdə böyük bir nəsil yetişsə də onlar öz doğma ocaqlarına qayıdacaqları günü gözlədilər və milli ənənələrini yüksək səviyyədə qoruyub saxlamağı bacardılar. Onlar istər yas, istərsə də toy, mövsüm və mərasim adətlərini hələ də Şuşada olduğu kimi icra edirlər.

Hələ Qarabağ xanlığı zamanından Cıdır düzündə keçirilən Novruz şənlikləri, el bayramları həmişə yaddaqalan və maraqlı olmuşdur.

Çiniz Qacar qeyd edir ki, "Bayramlarda Cıdır düzündə musiqi və nəğmə səsi aləmə səs salardı. Uzaqdan atların kişnərtisi eşidilirdi. Mənzərə qeyri-adi dərəcədə gözəl və şənləndirci olurdu. Qadınlar qızılı, parlaq rəngli parçadan tıkılmiş, qızlar isə gümüşü, bəzəkli, ən bahalı paltarlarını geyinirdilər (Çingiz Qacar, 2019: 173).

Ulu öndər Heydər Əliyev Şuşanın Azərbaycan üçün nə dərəcədə əhəmiyyətli olduğunu qeyd etmişdir: "Şuşa Azərbaycanın ən əziz və ən böyük tarixi olan bir guşəsidir. Şuşa əziz bir şəhər, müqəddəs torpaq, əziz bir qala, əziz bir abidədir. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

(https://azertag.az/xeber/Ulu_onder_Heyder_Aliyev_Susa_eziz_bir_seherdir_eziz_bir_torpaqdir_eziz_bir_qaladir_eziz_bir_abidedir-1689597).

Nadir şahın bəy statusu verdiyi Pənah xanın taxtı Şuşada qurulmuş, bu tarixi şəxsiyyətin Şuşa şəhərinin salınmasında böyük xidmətləri olmuşdur. Onu da demək olar ki, Şuşa hər şeydən öncə müqəddəs ocaq, ziyarət, sözün əsl mənasında, qayaların üzərində yerləşən yenilməz bir abidədir.

Bildiyimiz kimi, Qarabağ Azərbaycan xalqının maddi və mədəni irsini, qədim adət-ənənələrini, milli dəyərlərini özündə yaşadan əsrarəngiz diyardır. Qarabağın tacı olan Şuşa tarix boyu milli mədəniyyətin

beşiyi, isti ocağı hesab olunmuşdur. Uca dağları, şəfalı suyu, füsunkar təbiətinin saflığı insanlarına da sirayət etmişdir. 30 ilə yaxın mənfur düşmən əlində qalan Şuşa axır ki, ölkə Prezidentinin uzaqgörən, müdrik siyasəti, şanlı ordumuzun şücaəti sayəsində öz azadlığına qovuşdu. Bu işdə hər bir ailənin başçısı sayılan, vətənə igid, ürəkli, cəsur oğullar yetişdirən ağsaqqal və ağbirçəklərin də rolu böyükdür. İllərdir həmin mərd oğullarımız ailəsini itirmiş, böyük faciə yaşamış ağbirçək nənələrindən vətən həsrətli ağılar eşitmiş, vətən adı çəkiləndə ürəyi dağ-dağ olan ağsaqqal babalarını görmüş, ər, oğul itirən analarının naləsini duymuşlar. 30 il öncə analarının qoynunda məcburi köçkün kimi gələn körpə uşaqlar bu gün qalib ordunun cəngavər, alnıaçıq əsgər və zabitləridirlər.

"Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev erməni işğalçılarını Qarabağdan qovmaqla, Vətən müharibəsində xalqımıza tarixi Zəfər qazandırmaqla həyata keçirilməsi çox çətin olan bir problemi böyük iradə və yüksək səriştə ilə mümkün olacaq bir işə çevrilməsinin mümkünlüyünü isbat edir" (https://science.gov.az/az/news/open/18099).

Azərbaycanın digər bölgələrində olduğu kimi, şuşalılar da toy, yas, bayram ənənələrində ağsaqqal sözünə, ağsaqqal öyüdünə həmişə çox böyük önəm vermişlər. Əgər evdə ağsaqqalın müdrik məsləhəti necə eşidilir, necə keçirdisə, nəsildə, el arasında da eyni ilə onun sözü eşidilirdi. Məsələn, deyilənlərə görə Şuşa toylarında nəslin ağsaqqalı önə keçib aşpaza nəmər verməsə, qazanaçdı etməsə toya gələnlərə yemək paylanmazdı.

Evin ağsaqqalı ailənin yol göstərəni, qurucusu idisə, nəslin, elin və bütövlükdə xalqın müdrik ağsaqqalı eli, xalqı nizamlayan, önə çəkən, birlik yaradan ali şəxs hesab olunmuşdur. Ağsaqqal yalnız saqqalı ağ olana deyilməmiş, bəzən saqqalı ağarmayan da xalqı önə çəkmək, birlik, nizam yaratmaq baxımından xalqın ağsaqqalı hesab olunmuşdur. Bu baxımdan yanaşdıqda 44 günlük müharibədə öz müzəffər ordusu, müdrik və uzaqgörən siyasəti ilə xalqa böyük tarixi zəfər sevincini yaşadan İlham Əliyev də xalqın müdrik ağsaqqalıdır.

Akademik Teymur Bünyadov bu barədə fikrini belə bildirir: "Həqiqətdir ki, hər bir dövlət başçısı yaşından asılı olmayaraq əməlilə, arzusu ilə, həyata keçirdiyi tədbirlərin qətiyyətilə, xalqa xidmətilə ağsaqqalların ağsaqqalı olur. Belə olduqda dövlət də, xalq da yaşayır, inkişaf edir. Heç şübhəsiz, belə dövlət başçılarından Atropat daha yaddaqalan, daha ağsaqqallığa layiq olanıdır. Eradan əvvəl IV əsrdə yeni Azərbaycan dövlətini quran, uzaqgörən siyasətçi, tanınmış sərkərdə, hökmdar Atropat xalqına layiq müdrik ağsaqqal şərəfini qazanmışdır" (Bünyadov, 2007: 80).

Ağsaqqal öyüdü, ağbirçək sözü mərasimlərdə gənclərə qanun olmuşdur. Hər ailədə hər evdə öncə ağsaqqalın öz dəsti-xətti, öz iş qrafiki olur. Evin ağbirçəyi də onun əsasında ailənin qadın üzvlərinə istiqamət verərdi. Bu ənənə sonrakı nəsillərə də örnək olur. Şuşalı **Rüstəmova Mətanət Nuğay qızı**nın dediklərinə görə ailələrdə iş qrafiki bitən kimi Cıdır düzünə seyrangaha qalxardılar. "İşimizi görəndən sonra Cıdır düzünə qalxardıq. Burada da ağsaqqalın köməhçiləri – oğulları, ağbirçəyin köməhçiləri – qız-gəlinləri olardı. Cıdır düzündə xına daşları vardı. Nenəm bizi otuzdurardı o xına daşına, orda bitən bağayarpağı ilə barmaqlarımızı bükərdi. Sora əllərimizi silərdik, dırnaxlarımız qıpqırmızı bəzəhli olardı. Cıdır düzündə otururdux, qarşı tərəfdə böyük bir qaya vardı, qayanın adı Qızıl qaya idi. Uşaxdıx, elə bilirdih ki, doğrudan da, qaya qızıldandı. Nənəm diyirdi ki, qayadan soruşun görün "Qızıl qaya, qızılın var?". O sizə cavab verəcəh. Biz soruşurdux Qızıl qaya, qızılın var? Səsimizin son kəlməsinin əks-sədası gələrdi – var. Biz onu böyüdühcə başa düşürdüh. Uşax vaxtı elə bilirdik ki, ağbirçək nənəmiz və babamız nəyi necə deyifsə elədi" (Rüstəmova, 1965).

Azərbaycan xalqının milli-mənəvi dəyərlərindən olan müqəddəslik, toxunulmazlıq və ucalıq bu gün ən ali dəyərlər sırasına daxildir. Qadın, ana el arasında hər zaman uca, pak və əziz tutulmuşdur. Buna biz "Kitabi-Dədə Qorqud" dastanında da çox təsadüf edirik. Qadın Oğuz elində, xüsusilə həm övladların, həm ərlərin, həm böyüklərin nəzərində dəyərli bir şəxs olmuşdur. "Kitabi-Dədə Qorqud"un boylarında oğuzların tez-tez işlətdikləri "Ana haqqı, Tanrı haqqı" ifadəsi onların qəbul edikləri bir dəyişilməz anlam olmuşdur.

Akademik Teymur Bünyadov "Azərbaycan etnoqrafiyası" kitabında yazır: "Ağsaqqal sözünün dəyəri çox böyükdür. Hələ eradan əvvəl III əsrdən üzü bəri böyük bir tarixi keçmişə malik ulu əcdadlarımızdan olan albanlar arasında böyük-kiçik məsələsi, ağsaqqallıq institutu öz ömrünü yaşamışdır" (Bünyadov, 2007). Bu cəhəti eradan əvvəl I əsrdə yaşayan yunan coğrafiyaşünası Strabon belə qələmə alır: "Albanlar

yalnız öz qoca valideynlərinə deyil, ağsaqqal və ağbirçəklərə də hörmət etməkdən şərəf duymuşlar" (Латышев, 1890: 143).

Ağsaqqala evin, elin, nəslin böyüyü kimi necə hörmət qoyulmuşsa hər nəslin ağbirçəyinə də eyni cür münasibət bəslənmişdir. Hər bölgədə yol gedərkən böyüklərdən önə keçməmək ədəb-ərkandan, böyüklərə qoyulan hörmətdən sayılmışdır. Şuşalılar da buna çox böyük önəm vermişlər. "Biz heç vaxt babamla nənəm qarşıda gedəndə onlardan qabağa keçməzdih. Vaqifin məqbərəsinə çatanda babam çönərdi ki, gəlin bir Vaqifin məqbərəsinə də dönək. Orada da babam bizə maraqlı söhbətlər edərdi. Babam deyərdi, hazır olun sübh tezdən Daşaltına gedəcəyik. Şuşa iki hissəyə ayrılmışdı: lap yüksəy hissəsi, birisi də aşağı. Nenəmin tapşırığı ilə azuqələr yığılardı, dedəm samavarı belinə bağlayardı. Ora piyada gedərdik. Saat 6-da o vaxtı Üzeyir bəyin evinin altıynan piyada sıralama, dolama yollardan düşürdüh. Gəlif Daşaltıya çatırdıx. Daşaltıda Qotur bulağı deyilən bir bulax vardı. Şələlə kimi daşın arasından nəisə süzülür və daşın ortasından, altından süzülürdü. Bədənimizdə qaşınma olardısa, dəri xəstəliyi vardısa hamımız suda yuyunardıx. Babam öz oğlanlarıyla birgə samavar qalayardı, qız-gəlin süfrə açardı. Maya nənəm nəvələrinə öyüd-nəsihət verə-verə babamın dediyi vaxtda ayağa qalxmalıydıq. Yığışıb eyni qaydayla boş samavar babamın belində evə dönərdih. Ay bala, ağsaqqal-larımız bizi bir dəfə çağırardı ikinci dəfə çağırmağa gərək yoxdu. Həmən qarşılarında olurduq. Böyüklərin böyük sevgisini görürdük" (Rüstəmova, 1965).

Göründüyü kimi, ailə ənənələrində ağsaqqalın xüsusi çəkisi olmuşdur. Çox maraqlıdır ki, Cıdır düzündə keçirilən el şənliklərinin istər işğaldan əvvəlki dönəmdə olsun, istərsə də işğaldan sonra olsun, heç bir əvəzi yoxdur. Novruzda Cıdır düzündə qalanan tonqalları hamı görərdi. Bir-biriləri ilə bayramlaşardılar. Novruz şənliklərində Şuşada Cıdır düzündə qədim adətlərin hər biri icra olunurdu. "Kitabi-Dədə Qorqud" dastanında olduğu kimi rəngbərəng balaca çadırlar qurulardı. Qız-gəlinin çadırları uzaqdan bilinərdi. O çadırlarda şirniyyatlar bişirilib paylanardı. At çapmaq, güləşmək, qılınc oynatmaq, qurşaq tutmaq, xoruz döyüşdürmək, kasıblara yemək paylamaq, şirni dağıtmaq qədim adətlərdən olub. Bunların hamısı vaxtı ilə Cıdır düzündə həyata keçirilmişdir.

Rüstəmova Mətanət Nuğay qızının dediklərinə "bayramda evdə qazanın ağzı açılanda qazan birbaşa stola gələr, nənəm ayağa qalxardı. İlk çəkdiyi yeməyi babamın və sonra atamın qarşısına qoyardı. Daha sonra digərlərinə çəkilərdi... Nənəm həmişə evdən gəlinləriylə birgə qonax gedəndə gəlinlərinə ağ kəlağayı örtərdi. Özü isə qızılı rəngdə kəlağayı örtərdi. 8 qızın səkkizinə də qurban kəsərmiş. O gələndə hamı ayağa qalxırdısa, babam özündən böyük ağsaqqal gələndə hamıdan qabaq qalxardı ayağa. Biz böyüklərimizdən onu görmüşük" (Rüstəmova, 1965). Şuşada vaxtıilə oğlan toyunda yalnız kişilər, qız toyunda isə yalnız qadınlar iştirak edərdi. Oğlan toyunda qazanın ağzını mütləqdir ki, evin, yaxud nəslin ağsaqqalı açsın, qız toyunda da eynilə ağbirçək açmalı idi.

Ağsaqqallar gənclərin yetişməsində böyük önəm kəsb etmişlər. Onlar xüsusilə, yeniyetmə və gənclərin vətənpərvərlik, milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyəsində üzərilərinə düşən vəzifələrin öhdəsindən bu gün də layiqincə gəlirlər. Mərasim folklorundan başlamış, gəncləri xüsusi döyüş, cəngavərlik və hünər sahibi edən meydan tamaşalarına kimi ağsaqqalların bir dəsti-xətti bilinməkdədir.

Vaxtı ilə bütün bölgələrimizdə olduğu kimi qədim toylar Şuşada üç mərhələyə (toybaşlanğıcı, toy və toydan sonrakı mərhələ) bölünmüşdür. "Xan qızı Natəvanın tapşırığı ilə 40 gün ərzində şəhər sakinlərinə və yaxın kəndlərdə yaşayanlara plov paylanmış, hədiyyələr verilmişdir" (https://oxu.az/society/463609).

Şuşalılar həm də çox qonaqsevər olublar. Şuşada meydan məçitinə muzey kimi baxardılar.

Şuşada qədimlərdən gələn bir adət varmış. Nişanı olan qızın yaşı neçə idisə o sayda da xonça getməli idi. Ən çox parçalar qoyulurdu. Xonçaların üzərinə ya çəhrayı, ya da qırmızı rəngdə kəlağayı atılırdı. Ağbirçəklərin göstərişi ilə xonçalarla qız evinə daxil olanda hamı əlindəki xonçaları yuxarı qaldırmalı idi. Xonçalarla bərabər qız evinə qədəm qoyan oğlan evinin adamları oynamalı idilər. Sonra da əllərindəki xonçaları xüsusi hazırlanmış stola qoyardılar. Xonçaları qız evinə girərkən yuxarı – göyə doğru tutmaq adəti çox güman ki, yerə nəzərən yuxarının daha təmiz, pak, bədnəzərdən uzaq olması ilə əlaqədardır. Yerdə olan bəd qüvvələrin diqqətini, eləcə də pis nəfsləri yayındırmağa xidmət etmişdir.

Sonra oğlan evindən gələn ağbirçək bəxtli-təxtli bir gəlini çağırardı ki, gəlib gətirilən xonçaları göstərsin. Gəlin birbaşa evə gətirilərdi. Gəlin mağara çıxmazdı. Gəlinin başına altdan qırmızı, üstdən ağ

tor salınardı. 40 gün təzə gəlinin üzünü heç kəs görməzdi. Gəlin heç kəsin üzünə çıxmazdı, gəlinin üstünə heş kəs gəlməzdi. Bu adət təzə gəlini bədnəzərdən qorumaq üçün icra edilmişdir.

Şuşada toydan sonra gəlinin ağsaqqalların yanında başıörtüklü və ağzı yaşmaqlı olmağı əsas şərt idi. Şuşa sakinlərinin dediklərinə görə Şuşada müəyyən yaş dövrünə çatanda ağbirçək nənələr də oğlanları ilə danışanda ədəb-ərkana uyğun olaraq, "bəy-xanımlarımızdan belə görmüşük" deyərək yaylıqlarının ucunu ağızlarına tutardılar. Buna eyni zamanda bir çox bölgələrimizdə, xüsusən şimal bölgəsində də təsadüf edilir. Qayınataya hörmət əlaməti olaraq üç, yeddi, bəzən də qırx gün üzü örpəkli gəzərdilər. Evin ağsaqqalına müqəddəs baxıldığı, böyük sayıldığı üçün qız-gəlinlərin üzlərini gizləmək, yaşmaqlanmaq kimi adətləri də olmuşdur. Bəzən bölgələrimizdə dağa ucalığın, böyüklüyün rəmzi kimi baxaraq qız-gəlinlərin üzünü örpəklə örtmək adəti də mövcud olmuşdur. Bu, dağın sakral məkan kimi kultlaşdırılması ilə əlaqədar olmuşdur.

Yalnız Şuşa sakinindən İlaxır çərşənbədə (dördüncü təkdə) və Novruz bayramının səhəri su üstünə getmək, su üstündən keçmək, su ilə yuyunmaq, təmizlənmək və bu zaman "Çilə tökmək" adətinin olduğunu qeydə aldıq. Bu da sadəcə bir deyim olaraq qalmışdır. "Çilə" mərasimləri haqqında təsəvvür yoxdur.

Dünyasını dəyişən və "il"i çıxmayan əzizləri olan ailələr Novruz bayramında Qara bayram verirdilər. Söyləyicilərin dediyinə görə, Orucluq bayramı qabağa düşürdüsə, Qara bayramı Orucluqda, Novruz bayramı qabağa düşürdüsə, Novruzda verirdilər. Qara bayram üçüncü çərşənbə ilə dördüncü çərşənbənin arasında keçirilirdi. Qəbir üstünə gedənlər səməni, xonça tutub aparır, bişirilən ehsandan qəbirin üstünə tökür (sonralar bu adət yığışdırılır), qəbirin yanından keçənləri ehsandan yeməyə dəvət edirdilər. Axır çərşənbədə hər kəsin qapısında sac asılır, qovurğa qovrulurdu. Buğdanı qovurmazdan əvvəl subay şəxslərin adına saca buğda atılır, hansı tez çırtdasa, deyərdilər ki, bu qız tez ərə gedəcək. Çərşənbə axşamı üçün aş bişirilir, bişən yeməkdən pay çəkilir, yanına da bir qab xuşgəvər qoyulub qonşulara göndərilirdi. Hamı da çalışırdı ki, qonşunu qabaqlasın, ondan qabaq öz payını göndərsin. Axşamtərəfi qapılara torba atılırdı. Torba atanların da payı ayrıca alınıb hazır qoyulurdu.

Şuşa bütövlükdə Qarabağ mədəniyyətinin ən qədim ocaqlarından biridir. Bu diyar İbrahim xanın qılınc oynatdığı, Pənah xanın taxtının qurulduğu, Xan qızı Natavanın, Bülbülün və başqalarının yaşadığı əziz və müqəddəs yurd yeridir. Bu şəhərdə ulu əcdadlardan gələn ənənələr əsrlər keçsə də şuşalıların qanında, ruhunda, genetik yaddaşında yaşayacaqdır. "Məclisində, xeyirində və şərində böyüklərin yeri bilinən məkan həmişə çörəkli olar" – deyib atalarımız. "Ağsaqqal sözü keçərli olan yerdə bərəkət olar" – deyiblər. Əziz Vətən, süfrən bərəkətli, torpaqların, sıldırım qayaların yenilməz olsun.

ƏDƏBİYYAT

1. Qacar Ç. (2019). Köhnə Şuşa. Bakı: Şərq-Qərb

2.https://azertag.az/xeber/Ulu_onder_Heyder_Aliyev_Susa_eziz_bir_seherdir_eziz_bir_torpaqdir_eziz_bir_qaladir_eziz_bir_abidedir-1689597.

3. https://science.gov.az/az/news/open/18099

4. Bünyadov T. (2007). Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. Bakı: Şərq-Qərb.

5. Rüstəmova Mətanət Nuğay qızı, 1965, Şuşa şəhəri

6. Латышев В.В. (1890). Известия древних писателей фечеcких и латинских о Скифии и Кафказе, т. L, СПб., стр. 143

7. https://oxu.az/society/463609

QARABAĞIN BÜLBÜLÜ –MURTUZA MƏŞƏDİ RZA oğlu MƏMMƏDOV (BÜLBÜL)

Arzu Məmmədxanlı

filologiya üzrə fəlsəfə doktoru

AMEA Rəyasət Heyəti

XÜLASƏ

Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, SSRİ Xalq artisti Murtuza Məşədi Rza oğlu Məmmədov (Bülbül) xalq xanəndəliyindən opera müğənniliyinə kimi geniş yaradıcılıq yolu keçmiş, dünya vokal sənətinin əvəzolunmaz fenomeninə çevrilmiş nadir simalardan biridir. Nəhəng diapazonlu səsə, nadir istedada malik əvəzsiz ifaçı milli musiqi incəsənətimizdəki bütün mütərəqqi yeniliklərin ilk təşəbbüsçüsü və yorulmaz təbliğatçısı olmuşdur. O, Azərbaycan milli muğam oxuma sənətinin ən yaxşı üsullarını rus və Avropa vokal məktəbi ilə birləşdirərək Azərbaycanda yeni oxuma məktəbi yaratmışdır. Bu məktəb nəinki Azərbaycanda, keçmiş SSRİ məkanında, həmçinin Yaxın və Orta Şərq ölkələrində də vokal sənəti sahəsində öz mühüm təsirini göstərmişdir.

Tanınmış müğənninin əsas üstünlüyü onun sənətinin milliliyindədir. Milli ruh, yurda, vətənə, milli folklor və musiqi ənənələrinə bağlılıq Bülbülün çoxşaxəli yaradıcılığının təməlini təşkil etmişdir. O, Azərbaycan dilindən düzgün istifadə olunmasına mühüm əhəmiyyət verərək xarici ölkə bəstəkarlarının ariyaları və romanslarını, Azərbaycan bəstəkarlarının vokal əsərlərini, muğamları, xalq mahnıları və təsnifləri özünəməxsus üslubda, aydın tələffüzlə ifa etmişdir.

Bülbülün musiqi folklorumuzun toplanması, sistemləşdirilməsi, nota köçürülməsi və nəşri sahəsində müstəsna xidmətləri olmuşdur. Onun rəhbərliyi ilə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində yaradılmış Elmi Tədqiqat Musiqi Kabinetinin təşkili və burada Azərbaycan xalq musiqi incilərinin məşhur xalq sənətkarlarının ifasından nota köçürülməsi musiqi tariximizin mühüm hadisələrindən biridir. Dövrün tanınmış bəstkarlarını öz ətrafında birləşdirən bu məbədin Azərbaycan musiqi irsinin öyrənilməsi və yayılmasında böyük rolu olmuşdur.

Açar sözlər: Bülbül, xanəndə, opera müğənnisi, milli ruh, Azərbaycan folkloru, yaradıcılıq məktəbi

ABSTRACT

An outstanding representative of Azerbaijan's musical culture, People's Artist of the USSR Murtuza Mashadi Rza oglu Mammadov (Bulbul) is one of the rare figures who has passed a wide creative path from folk singing to opera singing and has become an invaluable phenomenon of world vocal art. An invaluable performer with a huge range of voices and unique talent, he was the first initiator and tireless propagandist of all progressive innovations in our national music art. He created a new singing school in Azerbaijan, combining the best methods of Azerbaijani national mugam singing with the Russian and European vocal schools. This school has had a significant impact in the field of vocal art not only in Azerbaijan, the former USSR, but also in the Middle East.

The main advantage of the famous singer is the nationality of his art. The connection with the national spirit, the country, the homeland, national folklore and musical traditions formed the basis of Bulbul's multifaceted creativity. He sang arias and romances of foreign composers, vocal works of Azerbaijani composers, mugams, folk songs and classifications in a unique style and with clear pronunciation, attaching great importance to the correct use of the Azerbaijani language.

Bulbul had exceptional services in collecting, systematizing, transcribing and publishing our musical folklore. One of the important events in the history of our music is the organization of the Scientific Research Music Cabinet established under his leadership at the Azerbaijan State Conservatory and the transfer of pearls of Azerbaijani folk music from the performances of famous folk artists. This temple,

which unites famous composers of the time, played an important role in the study and dissemination of Azerbaijan's musical heritage.

Keywords: Bulbul, folk singer, opera singing singer, national spirit, Azerbaijani folklore, creative school

Sənə ellər verib Bülbül adını,
Əbədi qalacaq vurduğun cəh-cəh!
Çox bülbül görübdür qoca dünyamız,
Səndən nə gəlməyib, nə gəlməyəcək!

Bəxtiyar Vahabzadə (4)

Əsrlər boyu insanları öz cəh-cəhilə valeh edən, heyran qoyan bülbül Şərq ədəbiyyatında ən çox müraciət olunan obrazlardan biridir. Eşqin, sədaqətin rəmzi sayılan bülbül musiqi ifaçılığı ilə bağlı əhvalatların, rəvayətlərin də baş qəhrəmanlarındandır. Xalq arasında bülbülün mahir musiqiçilərin ifasından vəcdə gələrək cəh-cəh vurmağa başladığı, uçub ustad sənətkarların çiyninə, musiqi alətlərinin ustünə qonduğu haqqında maraqlı söhbətlər danışılır.

Bir də vətənə bağlılığın, saf məhəbbətin rəmzi kimi yaddaşımıza əsrlərdir yazılan Xarıbülbül əfsanəsini xatırlayaq. Deyilənə görə, Qarabağ xanı öz qızını İran şahına ərə verir. Xan qızı İranda darıxır, sıxılır və şah onun şərəfinə sarayın bağçasında "Vətən bağı"nın salınmasını əmr edir. Bağ salınır və Qarabağda yetişən bütün güllər, bitkilər bu bağda əkilir. Onlardan hər biri yad torpaqda qol-budaq açır, yalnız Xarıbülbül özünə məskən sala bilməyərək solur, quruyub yox olmağı seçir.

1897-ci ilin iyun günlərindən birində, Şuşaya gedən yolda dünyaya bir körpə göz açır. Günəşin ayı əvəz etdiyi aydın bir səhərdə doğulduğundan anası uşağı Aydınlıq deyə çağırır, atası isə Murtuz adlandırır. Amma bütün bunlardan daha yüksək bir adı ona hələ çox gənc yaşlarında, yeniyetməlik çağında xalq özü verərək Bülbül çağırmağa başlayır və o, bütün Azərbaycanın Bülbülünə çevrilir.

Bülbülün yolda dünyaya gəlişi taleyin bir qisməti olduğu qədər rəmzi məna da daşıyır. Xalq yazıçısı Elçinin qeyd etdiyi kimi, "Bülbül yolda anadan oldu və bütün ömrü boyu da yolda oldu – həm həqiqi, həm də məcazi mənada: dünyanın müxtəlif ölkələrində, müxtəlif şəhərlərində oldu, onun səsi müxtəlif konsert salonlarından gəldi və eyni zamanda, bir sənətkar kimi, həmişə yolda oldu, - sənətin yüksək bədii-estetik zirvələrinə aparan yolda".

Tanınmış sənətkarın məhz Şuşada, Azərbaycanın mədəni mərkəzlərindən biri olan bir şəhərdə dünyaya gəlməsi onun musiqiyə, şeirə meylinin yaranmasında mühüm rol oynamışdır. Şuşanı "Şərqin konservatoriyası", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi", "Azərbaycanın musiqi qalası" adlandırırlar və bu, əlbəttə, təsadüfi deyil. Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Üzeyir Hacıbəyli, Niyazi, Fikrət Əmirov, Süleyman Ələsgərov kimi sənətkarların, Firidun bəy Köçərli, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Xurşudbanu Natəvan, Qasım bəy Zakir və onlarca ədiblərimiz öz yaradıcılıq qayəsini Şuşa təbiətindən, Şuşa ab-havasından almışlar. Məhz bu şəhərin muğamatın tədris olunduğu məktəblərində özünəməxsus avazı və oxu tərzi olan müğənnilər yetişərək Şərq aləmindən bütün dünyaya səs salmışlar. Şuşanın gözəl təbiəti, təmiz havası, saf bulaqları bu istedadların yetişməsində canlı varlıq kimi iştirak etmişdir. Mənbələrdə qeyd olunduğuna görə məktəb-mədrəsə təhsili aldığı kiçik yaşlarında Bülbül xalq sənətkarı Xan Şuşinski ilə Cıdır düzünə çıxar, orada hərəsi bir tərəfə çəkilərək bayatı deyərdi: bir bayatını Bülbül, bir bayatını Xan (3, s. 12). Zənnimizcə, illərlə davam edən bu bəhs, bu yarış Bülbülün xalq sənətçisi kimi yemişməsində müstəsna rol oynamışdır.

Nə idi Bülbülü bu qədər sevdirən? İlk başda qeyd etmək lazımdır ki, onun oxuduğu şeirin mənası və məzmunu ilə musiqi arasında sıx vəhdət, həmahəng səslənmə və həmavazlılıq açıqca duyulur. Onun oxuduğu bütün əsərlərdə olduqca aydın tələffüz, gözəl diksiyaya malik ifaçılıq qabiliyyəti özünü

göstərir. Müğənni belə hesab edirdi ki, "öz dilində elə oxumalı ki, o dili başa düşməyənlər belə ləzzət alsınlar, sənin dilində oxumağı arzulasınlar".

Bülbül Şərq poeziyasını dərindən dərk edən, ona ürəkdən bağlı olan sənətkardır. Nizami, Xaqani, Füzulinin əsərləri həmişə onun ürəyində, dodaqlarında dolaşıb, Vaqifin, Ələsgərin yaradıcılığı dilinin əzbəri olubdur. Həyat yoldaşı Adilə xanım öz xatirələrində qeyd edir ki, "Bülbül şeir xəzinəsindən incilər seçməyi bacarır, söz üzərində yorulmadan işləyir, tələffüzünə xüsusi diqqət yetirirdi". Doğrudan da, onun mahnılarında sözlər musiqiyə çevrilir, musiqi isə insanın danışıq dilin kimi səslənirdi.

Bülbülün yaxın dostu, Azərbaycan xalqının dahi sənətkarı Üzeyir Hacıbəyli Nizaminin anadan olmasının 800 illik yubileyi münasibətilə şairin bir sıra qəzəllərinə musiqi bəstələyərkən bunlardan Bülbülə böyük pay nəsib olmuşdur. "Sevgili canan", "Sənsiz"lə konsert salonlarını inlədən Bülbül bu əsərləri ömrünün sonuna qədər həvəslə oxumuşdur.

Bülbülün ifasında əfsanəvi xalq qəhrəmanı Koroğlu obrazı bütün qüdrəti, incə və şairanə qəlbi, təmiz, sadiq məhəbbəti ilə gözlər önündə canlanır. Müğənni bu obrazın öhdəsindən səsinin gurluğu, axıcılığı, səsin-nəfəsin gözəlliyi, məlahəti ilə gələ bilib. Sənətkar bu rolda özünü aşıq, döyüşçü, sərkərdə kimi sınaqdan keçirmişdir.

Bülbülün yaradıcılığının bir zirvəsini Koroğlu, Aşıq Qərib, Kərəm obrazları, Üzeyir Hacıbəylinin "Sənsiz", "Sevgili canan", Asəf Zeynallının "Ölkəm", Fikrət Əmirovun, Səid Rüstəmovun, Cahangir Cahangirovun, Tofiq Quliyevin, Süleyman Ələsgərovun, Ağabacı Rzayevanın romans və nəğmələri, digər hissəsini xalq mahnıları və təsniflər – "Küçələrə su səpmişəm", "Qara tellər", "Girdim yarın bağçasına", "Qaçaq Nəbi", "Çəkərəm nazını yarim, nə qədər naz eləsən də" və s. təşkil edir.

Dahi bəstəkar Qara Qarayev "millidən kənarda musiqi sənəti ola bilməz, yaradıcılığı bütün xalqların, bütün dünya mədəniyyətinin sərvətinə çevrilmiş musiqi dahiləri dərin köklərdə öz vətəninə, öz xalqına, onun mədəniyyətinə, tarixinə, doğma torpaqlarının təbiətinə və nəhayət doğma xalqlarının musiqi dilinə bağlıdırlar" demişdir. Bülbül xalq musiqisinə böyük qiymət verərək "tarixi özündə qoruyub saxlayan xəzinə" adlandırırdı. Böyük müğənni xalq musiqisinin – mahnı və təsniflərin, şifahi ənənəli professional musiqi janrlarının – aşıq musiqisi, muğam dəstgahları, zərbi muğamlar, təsnif və rənglərin mahir bilicisi idi. Məsələn, "muğam" sözünün etimologiyası haqqında demişdir: "Ərəb sözü olan məqam və fars sözü olan muğamat adamların toplaşdığı yer, sonra söhbətin özü, nəhayət hekayə, novella deməkdir. Bu, muğam sözünün birinci mənasıdır. Muğam sözünün ikinci mənası ilə "melodiya"dır. "Rast" muğamını oxu, və yaxud "Segah muğamını oxu" və s. Böyük müğənninin muğamın yüksək inkişaf etmiş forması olan dəstgah haqqında fikirləri də diqqətəlayiqdir. O, belə bir mülahizə irəli sürürdü ki, "Dəstgahlar" bir-birinə üzvi surətdə bağlı və məntiqi olaraq bir-birinə keçən muğamlardan ibarətdir. Dahi bəstəkar muğam şöbələrini də ayrıca muğam hesab edirdi.

Bülbülün muğamların nota yazılması və öyrənilməsində xüsusi xidmətləri vardır. O, belə hesab edirdi ki, muğamların, çoxdan unudulmuş təsnif və rənglərin nota yazılması qocaman xanəndə və çalğıçıların ən yaxşı ənənələrini bərpa etməkdir. Bülbül not yazılarının tarixi əhəmiyyətini yüksək dəyərləndirir və deyirdi ki, "bir zaman gələr biz tarzən Mənsurovun filan havanı necə çaldığını bu yazı vasitəsilə görə bilərik".

Yalnız muğamatın, xalq mahnılarının, el havalarının yox, aşıq sənətinin öyrənilməsi və inkişafında da Bülbülün həm elmi-nəzəri, həm də sırf təşkilati baxımından böyük rolu olmuşdur. Zəngin xalq yaradıcılığına bağlılıq, bu yaradıcılığı öyrənmək və öyrətmək, onu təbliğ etmək, sevdirmək ömrünün sonuna qədər Bülbülün fəaliyyətinin tərkib hissəsi olmuşdur. "Aşıq el anasıdır", "aşıq gördüyünü çağırar", "bir aşıq haqq aşığıdır" sözləri ilə aşıq sənətini mədh edən sənətkar belə hesab edirki ki, "Aşıq hər şeydən əvvəl, şairdir, ifa etdiyi mahnıların yaradıcısıdır. Aşıq müğənnidir. O, öz nağılının xeyli hissəsini mahnı şəklində ifa edir. Aşıq çalğıçıdırr. Ö, öz hekayətini və mahnısını saz ilə müşayiət edir. Aşıq artistdir. O, öz çıxışını xarakterik mimika ilə müşayiət edir, gəzişir, rəqs edir, çox vaxt hekayə qəhrəmanının hərəkətini təsvir edir. Aşıq reçitativ ifaçılığın ustasıdır" (1, s. 33). Məhz musiqi folklorunu dərindən bilməsi, aşıq dünyasına, müğənni xanəndələrin məişətinə, onların ənənəsinə yaxşı bələd olması Kərəm obrazının ərsəyə gəlməsinə və sevilməsinə səbəb olmuş, tamaşaçılarda Kərəmin – Bülbülün əzablarına, ülvi məhəbbətinə, sədaqətinə dərin inam yaratmışdır.

Bülbül yaradıcılığının digər bir hissəsini də onun sənətə gətirdiyi yenilik təşkil edir. Xəlqilik - ən yaxşı klassik ənənələrə sədaqət, novatorluğa meyl Bülbül yaradıcılığının başlıca xüsusiyyətlərindəndir. O, tarixə Azərbaycan professional vokal məktəbinin banisi kimi daxil olmuşdur. Xalq yazıçısı Süleyman Rəhimov dahi sənətkarın yaradıcılığının bu xüsusiyyəti haqqında demişdir: "Üzeyir bəy musiqi aləmində hansı yeri tutursa, Səməd Vurğun müasir şeirdə hansı mövqedə dayanırsa, Bülbül də vokal-səhnə aləmində belə bir yeri tutur, belə bir mövqedə dayanır" (1, s. 33).

Dahi sənətkar dörd il İtaliyada təhsil almaqla Avropa vokal məktəbini, İtaliya tədris metodikasını dərindən öyrənmiş, Azərbaycan musiqi məktəbini Ümumavropa məktəbi ilə sintezləşdirərək özünün yeni üslubunu yaratmışdır. Qeyd edək ki, Bülbülün novatorluq fəaliyyəti Avropanın opera sənəti ustalarının tarixi rolundan əsaslı surətdə fərqlənirdi. Çünki onun klassik opera ənənələri əsasında yetişmiş sələfləri yox idi. Məhz buna görə də Bülbülün novatorluğu tam yenidir və tarixilik baxımından böyük əhəmiyyətə malikdir. Spesifik Şərq məktəbindən Avropa vokal məktəbinə keçmiş ilk vokalçı, Azərbaycan milli muğam oxuma sənətinin ən yacşı üsullarını rus və Avropa vokal məktəbi ilə birləşdirərək Azərbaycandas yeni oxuma məktəbi yaratmış, Zaqafqaziya, Orta Asiya, Yaxın və Orta Şərq ölkələri xalqlarının oxuma sənətinə səmərəli təsir göstərmişdir (2).

Xalq yazıçısı Anarın sözləri ilə desək, "Bülbül yalnız minillik muğam xanəndəlik ənənələrinin layiqli varisi yox, eyni zamanda İtalyan Belkanto vokal məktəbini keçmiş nadir bir istedad idi – ilk baxışdan bir-birinə uzaq olan iki musiqi dünyasını – Şərq və Qərb musiqisini öz parlaq sənətiylə yaxınlaşdırır, birləşdirir, təbii, üzvi vəhdətdə yüksək sənət örnəkləri yaradırdı. Yalnız Azərbaycanda deyil, bəlkə bütün islam şərqində yeni vokal üslubun təməlini qoymuşdu. Bu üslub Kavaradossinin ariyasından "Çahargah təsnifinə", "Müxalif təsnifi"nə qədər uzanana ucsuz-bucaqsız musiqi dünyasını ehtiva edirdi. Bülbülün ecazkar səsində iki musiqi aləmi – Avropa və Şərq – bir-birinə qovuşurdu".

Doğrudan da, min illər bundan əvvəl yaranmış xalq mahnıları Bülbülün misilsiz təqdimatında müasirlik çalarları, yeni intonasiyalar kəsb etmiş, verilən estetik zövq insanların bugünkü mənəvi tələbatına cavab verən mahnıların gözəl ifasına görə dinləyicilərdə dərin minnətdarlıq hissi yaratmışdır. Bülbülün Azərbaycan vokal mədəniyyətinə gətirdiyi yeniliklər opera və ifaçılıq sənətinin gələcək inkişafına da misilsiz töhfə olmuşdur.

Bülbül 64 illik həyatında öz missiyasını tam şəkildə yerinə yetirməyi bacarmışdır. Elə buna görə də həyatının son dəqiqələrində ona tələş içində yaxınlaşan həyat yoldaşına "Qorxma, qorxma, bu adicə ölümdür!" deyərək ölümü belə adiləşdirmiş, yaşamı əbədiləşdirmişdir (3, s. 17).

Nəticə: Ümummilli liderimizin dediyi kimi, Şuşasız Qarabağ, Qarabağsız bütün Azərbaycan ola bilməz. Artıq Bülbülün 30 ilə yaxın düşmən işqalı altında olan vətəni azad olmuşdur. Bu gün Bülbülün ruhu şad, qəbri nura qərq olmuşdur. Bu gün Şuşada əsir altında qalmış bir cüt bülbül - öz sədaqəti ilə adını əfsanələrə yazdıran Xarıbülbül boynunu qürurla dikəltmiş, bülbül nəfəsli Murtuza Məmmədovun xoş avazı Şuşanın dağlarına yayılmışdır. Bu gün Şuşada Üzeyirin, Bülbülün 30 ilə yaxın sənsiz – vətənsiz qalmış "Sənsiz"i azadlığa qovuşmuşdur.

Akademik Mustafa Topçubaşov Bülbülün anadan olmaşısın 60 illiyi münasibətilə yazmışdır: "Bülbülün bayramı yaz açılanda, ağaclar çiçəklənəndə olur. Qoy bizim Bülbülümüzün qışı olmasın" (3, s. 143).

Nə qədər ki, musiqi var, şeir var, söz var, Bülbülün özünü də ifa etdiyi xalq mahnılarından birində deyildiyi kimi, "özü bülbül, sözü bülbül, səsi bülbül" olan sənətkar qəlblərdə daim yaşayacaq, qışı olmayacaqdır.

Bülbül! Oxu ki, quşlar dilə gəlsin, xoş avazın elə gəlsin!

Ədəbiyyat siyahısı

1. Bülbül (Murtuza Rza oğlu Məmmədov) : Biblioqrafiya /tərtib edənlər: M.Vəliyeva, M.İbrahimova, G.Misirova; elmi redaktor K.Tahirov, redaktor G.Səfərəliyeva. Bakı: 2017, 344 s.

2. İbrahimov M. Bülbül sözün əsl mənasında dahi və ölməzdir. Onun sonsuz obrazını qranit monument kimi xalq öz ürəyində böyük məhəbbətlə qoruyur www.byulbyul.az/az/aboutbb

3. Məmmədova A. Bülbül. Bakı: 1967, 185 s.
4. Vahabzadə B. http://anl.az/el/emb/Bulbul/haqqinda.htm
5. https://az.wikipedia.org/wiki/Bülbül_(müğənni)

NƏBİNİN QAÇAQÇILIQ ETDİYİ BÖLGƏLƏR VƏ ONLAR HAQQINDA TARİXİ HƏQİQƏTLƏR

REGIONS WHERE NEBİ WAS SMUGGLED AND HISTORICAL TRUTHS ABOUT THEM

Afag Qasimova

Doctoral student,

Institute of Folklore of ANAS

ÖZƏT

Məqalədə "Qaçaq Nəbi" dastanının qəhrəmanı Həcər və Nəbinin qəhrəmanlığından bəhs edilir. Nəbi Azərbaycan xalqının sevimli qəhrəmanı və qaçaq hərəkatının simvolu hesab olunur. Nəbi hərəkatı hər zaman aktual olmuş və ona sağlığında belə müxtəlif xatirələr, rəvayətlər, hekayətlər, nəğmələr qoşulmuşdur. Xalqın qəhrəmanına qoşduğu folklor nümunələri müxtəlif qəzet və jurnallarda dərc edilmişdir.

Məsələnin aktuallığına siyasi cəhətdən yanaşsaq, Qaçaq Nəbinin fəaliyyət göstərdiyi coğrafi ərazi Azərbaycanın dilbər güşələrindən sayılan, tarixi torpağımız olan Zəngəzur, Göyçə mahalıdır. Azərbaycanın tarixi əraziləri sayılan həmin yerlər Sovet imperiyasının ədalətsiz siyasəti nəticəsində xalqımızdan alınmış, erməni əhalisi ora köçürülmüşdür.

Nəbinin dövründə belə, bir millət kimi ermənilərin psixologiyasında satqınlığın, qorxaqlığın, yaltaqlığın xarakter kimi nə dərəcədə oturuşduğunun şahidi oluruq. İstər Nəbinin hampalarının erməni olması, həmin millətin haqsızlığı səbəbindən elindən ayrı düşməsi, istərsə də erməni bəylərinin xalqa zülmü, onların satqınlığı nəticəsində Mehdini itirməsi hadisəsi xalqın danışdığı xatirələrin, rəvayətlərin dərin qatlarında özünə yer alıb.

Azərbaycan son zamanlar qazanılmış qələbə nəticəsində bu xalqın iç üzünü aça bilmiş, açıq şəkildə Nəbinin qəhrəmanlıq göstərdiyi torpaqların bizə məxsus olduğunu dünyaya elan etmişdir. Qaçaq Nəbi və qoçaq Həcərin doğulduğu Qubadlı rayonu isə ordumuz tərəfindən işğaldan azad edilmişdir. Artıq xalqımızın igid qəhrəmanı Həcərin qəbrini Mollu kəndinin sakinləri yad edir. İndi bu qəhrəmanların simasında yeni-yeni qəhrəmanlarımız yaranır.

Açar sözlər: Aşağı Mollu, Qaçaq Nəbi, qoçaq Həcər, Zəngəzur mahalı, Göyçə mahalı, qaçaqçılıq hərəkatı.

ABSTRACT

The article tells about the heroism of Hajar and Nabi, the heroes of the "Fugitive Nabi" epos. Nabi is considered a favorite hero of the Azerbaijani people and a symbol of the fugitive movement. The Nabi movement has always been relevant, and even during Nabi's life, various memories, legends, stories and songs were dedicated to it. Samples of folklore added by the people to the hero have been published in various newspapers and magazines.

If we look at the urgency of the issue from a political point of view, the geographical area where the fugitive Nabi operated is Zangazur, Goycha district, which is considered one of the charming corners of Azerbaijan and is our historical land. These lands, which are considered to be the historical territories of Azerbaijan, were taken from our people as a result of the unfair policy of the Soviet Empire, and the Armenian population was relocated there. Even in the time of Nabi, we witness the extent to which betrayal, cowardice and flattery are ingrained in the psychology of Armenians as a nation. Whether it is the fact that Nabi's hampas were Armenians, that he was separated from his people due to the injustice of that nation and he has lost Mehdi as a result of their oppression and betrayal, are deeply rooted in the saga.

As a result of the recent victory, Azerbaijan has been able to reveal the face of this nation, and has openly declared to the world that the lands of which Nabi was a hero belong to us. Gubadli region, where the fugitive Nabi and the fugitive Hajar were born, was liberated from occupation by our army. Residents of Mollu village already remember the grave of Hajar, the brave hero of our people. Now our new heroes are appearing in the faces of these heroes.

Keywords: Ashagi Mollu, Fugitive Nabi, Fugitive Hajar, Zangazur district, Goycha district, smuggling movement.

Qaçaq Nəbi 1854-cü ildə Zəngəzur qəzasının Aşağı Mollu (Qubadlı rayonununda) kəndində bir türk ailəsində anadan olmuşdur. Aşağı Mollu kəndi əsasən türklərin yaşadığı ərazi olub. Onun milliyətinin kürd olması ilə bağlı fikirlər yalnışdır. Məsələn, Müsavat qəzetinin 03.05. 2013 tarixində dərc olunmuş "Azərbaycan tarixi şəxsiyyətlərinə dair polemika" adlı məqalədə Nəbinin kürd olması [URL1] həqiqəti əks etdirmir. Çünki Azərbaycanın tarixi torpaqları sayılan həmin ərazilərdə Azəri-Türkləri yaşamışdır. Nəbinin milliyəti ilə bağlı dolaşıqlıq yaratmağın bir səbəbi də həmin ərazilər haqqında yalnış təsəvvür formalaşdırmaqdır. Bu yalnış məlumat hələ 1912-ci ildə SMOMPK məcmuəsində "Azərbaycan tatarlarının musiqisi və nəğmələri" adlı məqalə öz əksini tapmışdır. Məqalədə Nəbi haqqında qərəzli məlumata rast gəlirik. Müəllifin qərəzli fikrinə isə müasir dövrdə tam aydınlıq gətirilmişdir. Məqalə müəllifi Pavel Vostrikovun Nəbini "kürd milliyyətli quldur" adlandırılmasına folklorşünas Səhər Orucova "Dil və ədəbiyyat" jurnalının 2013-cü il buraxılışında münasibət bildirir və hesab edir ki, "Müəllif bu mahnı mətninin yaranma səbəbini erməni şovinizminin və rus işğalçı milli siyasətçilərinin mövqeyindən izah etmişdir" [Orucova, 2012, s.74]. Doğrudan da Nəbi ilə bağlı bu münasibət Pavel Vostrikovun xalq qəhrəmanına qeyri-obyektiv mövqeyini sərgiləyən faktdır. "Belə danışırlar ki, Nəbi bir məşhur bəyin mehtəri olubdur. Bir dəfə Nəbi öz qonşusunu öldürdüyündən yerli polislər tərəfindən izlənilir. Bir neçə il Nəbi dağlarda, meşələrdə gizlənir, ortaya çıxmır. Özü kimi otuza qədər qulduru başına yığdıqdan sonra o, arazqırağı kəndlər və zəngəzurlular üçün sağalmaz dərdə, bəlaya çevrilir. Məsələn, günün-günorta çağında o istədiyi kəndə basqın edir, əlinə keçən sakinləri qırır, nələri var talayır, mal-qaralarını aparır, hətta adambaşına vergi təyin edib pul tələb edirmiş" [Orucova. 2012, s.73]. Tədqiqatçı alim Səhər Orucova haqlı olaraq bu məsələlərə özünün ciddi münasibətini bildirir və məqalə müəllifinin siyasi mövqeyini məsələyə məmur kimi yanaşmasına bağlayır. Müəllif Nəbinin bir xalq qəhrəmanı kimi kiçildildiyini və onun başçılıq etdiyi kəndli hərəkatının təsir gücünün azaldığını qeyd edir. Çünki Pavel Vostrikovun yanaşması xalqın el qəhrəmanına münasibəti prizmasından tamamən fərqlidir. Milliyyət məsələsinə münasibətdə də ciddi yanlışlıqlar özünü göstərir. Tanınmış folklorşünas Əliheydər Tahirovda "Qaçaq Nəbi" dastanını belə bir epizodla başlayır: "Nəbi Təxminən 1856-cı ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində yoxsul bir ailədə anadan olmuşdu.Əsli kürd olan bu adamın atası Alı kişi qapılarda muzdurlux etməklə böyük ailəsini saxlıyırmış. Nəbi uşaq ikən bəylik quzusunu otarardı" [Tahirov, 1938, s.6]. Əliheydər Tahirovdan fərqli olaraq Nəbi ilə eyni dövrdə yaşamış tarixçi folklorşünas Bəhlul Behcət "Aşağı və yuxarı, hər iki Mollu türk qövmünə aiddir" [Behcət, 2011, s.87] fikrini söyləyərək məsələyə izah vermişdir. Nəzərə alsaq ki, onun "Qaçaq Nəbinin tarixi" adlı kitabı Nəbini tanıyan 80-ə yaxın insanların xatirələri əsasında tərtib edilib, onda faktın dəqiqliyi bizdə şübhə doğurmur. Folklorşünas Mahmud Allahmanlı tarixçi Bəhlul Behcətin Nəbinin milliyəti ilə bağlı dolaşıqlığa son qoya biləcək məlumatları müsbət qarşılayır və münasibətini bildirərək qeyd edir: "Qaçaq Nəbi haqqında son dövrlərdə mübahisəyə çevrilən və dəqiqləşməli olan məsələlərdən biri budur. Bunu da tarixçi, islamşünas, folklorşünas Bəhlul Behcət bütün tərəfləri ilə göstərir. Və dolaşıqlıq yaradanlara, bu fikirdə olanlara bu ən tutarlı cavabdır" [Allahmanlı, 2012, s.30]. Folklorşünas Füzuli Bayatın da mövqeyi birmənalıdır. "Nəbidən fərqli olaraq Qaçaq Kərəm, Dəli Alı, Qandal Nağı, Qara Tanrıverdi dastanlarında türk oğlu, türk kəndlisi kimi deyimlər yoxdur. O halda nədən bu kürdlük məsələsi Qaçaq Nəbi dastanına düşmüşdür, sorusu ağıla gəlir. Doğrudur, kürd etnik adı Koroğlu dastanında da qalmışdır. Ancaq Koroğluda kürd anlamaz, dövlət tərbiyəsi görməmiş, düşmənlərin tərəfində olan adam kimi göstərilir" [Bayat, 2019, s.191]. Pavel Vostrikovun bəzi yalnışlıqlara baxmayaraq məqalə bizə bir çox əlavə məlumatlar da verir. Məsələn, "Nəbi çixubdı Gorusin başınə, aynalı tüfəngi salub döşünə" və yaxud da "qoy məna desinlər, ay nadan Nəbi, divanı dalınca, oynadan Nəbi" misrası el qəhrəmanına olan sevginin ifadəsi ilə yanaşı, Nəbinin döyüşdüyü coğrafi ərazilər haqqında da məlumat verir. Aydın olur ki, Nəbi Goruş tərəflərdə daha çox döyüşmüş, dağlar, qayalar,

meşələr onun mübarizəsi üçün bir səngər olmuşdur. Nəbinin qəhrəmanlıq göstərdiyi coğrafi ərazilərin adları həm məqalələrdə, həm tarixi sənədlərdə , həm də dastan variantlarında kifayət qədərdir. Məsələn, Azad Nəbiyev variantında: "Ustad deyir ki, Zəngəzur mahalında rəncbər Alonu tanımayan yox idi. Elə ki, yaz gəldi, rəncbər Alo mehrini salardı çöllərə. Bəylər, hampalar, qazılar dayanardı qapısında növbəyə. Hamı istəyərdi torpağa toxumu Alo səpsin" [Azərbaycan dastanları, 1977, s.41].

Həsən Qasımov variantında: "Xalq qəhrəmanı Qaçaq Nəbi haqqında qoca babalarımız belə nağıl edirlər: "1854-cü il yay fəslinin axırları idi. Təxminən sentyabr ayının əvvəllərində Zəngəzur mahalının naçalniki Səlimbəy əmr verir ki, Gorusdan Qafana yol çəkmək üçün kəndlilər 15 gün biyara çıxarılsın. Mahalın bütün yüzbaşıları kimi Əgərə çayının kənarındakı Aşağı Mollu kəndinin yüzbaşısı Mahmud bəy də bu əmri camaata çatdırır və hazırlaşmalarını tapşırır" [Azərbaycan dastanları, 1977, s.5].

Əhliman Axundov variantında: "Ərz olsun qulluğunuza: Zəngəzur qəzasının Aşağı Mollu кəndində Alı (Alo) adlı bir кasıb кişi var idi. Alı кişi bəy rəncbəri idi. Bu кişinin dörd ayaqlıdan qapısında bir qotur кeçisi və başlarına çəкməyə bir mitili də yox idi [Azərbaycan folkloru külliyyatı, 2011, s.5].

Məsələn, arxiv sənədində isə qeyd edilir ki, "Zəngəzur qəzasının əsrlər boyu Sultanovların mülkü olmuş Zeyvə kəndinin münbit torpaqlarının hökumət adamlarının üzgörənliyi ilə alınıb ermənilərə verilməsi barədə şikayəti həll etmək üçün Tiflisdən buraya təhqiqat qrupu göndərilir. Nəbinin hər yerdə adamları var idi, bunu ona çatdıran kimi Nəbi yolda onların qabağını kəsir, məsələyə ədalətli baxılmasını tələb edir, əks halda cəzalanacaqlarını deyir. Məmurlar Qaçaq Nəbinin qorxusundan mübahisəni yuxarıdan deyilən kimi yox, şikayətçilərin xeyrinə, həm də ədalətlə həll edir (Kafqaz, 1895, 27 sentyabr nömrəsi)" [Nərimanoğlu, 2021, s.42] Arxiv materialında açıq-aşkar ermənilərin xalqımıza qarşı etdiyi haqsızlıq özünə yer alır.

Goruşun qaşında yıxılıb yatdım,

Ehtiyatı əldən kənara atdım,

Xəcalətdən tamam qan-tərə batdım.

Boz at, çatdır məni, aman günüdür!

Yoldaşların darda yaman günüdür! [Azərbaycan folkloru külliyyatı, 2011, s.382], "Qoç Nəbi çıxıbdır Goruş başına, Quş kimi qonubdu yəhər qaşına... [Azərbaycan folkloru külliyyatı, 2011, s.214] şeir parçaları, "Nəbigil Sisyanı, Qafanı geridə qoyub Mığrıdan İrana adladılar" kimi saysız-hesabsız epizodlar, Həcərin məşhur Goruş qazamatına salınması Azərbaycan qəhrəmanının öz tarixi torpaqlarında fəaliyyəti və haqsızlığı, ədaləti bərpa etməsinə aid nümunələrdir.

Bəs Azərbaycanın tarixi torpaqları, Qarabağın dilbər güşəsi Zəngəzur mahalı nə zamandan Ermənistana verilmişdir? Azərbaycanın qədim ərazisi, dilbər güşəsi olan Zəngəzur mahalı (7824 kv.km ərazisi) Gorus, Sisian, Qafan, Mehri, Laçın, Qubadlı, Zəngilan rayonlarını əhatə edir. Gorus, Sisyan, Qafan əraziləri indiki Ermənistan Respublikası, Laçın, Qubadlı, Zəngilan isə Azərbaycan Respublikasının ərazisi kimi tanınıb. Zəngəzurun 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərara əsasən Ermənistana verilir. [URL 3] Bu azmış kimi 1988-ci ildə təkcə Zəngəzurda deyil, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan Azərbaycanlılar vəhşicəsinə öz dədə-baba yurdlarından qovuldular. Kütləvi şəkildə qovulan, terrora məruz qalan azərbaycanlıların hamısı qovulduqdan sonra xalqımıza məxsus yüzlərlə tarixi abidələr, maddi-mədəni irsimiz məhv edildi. Bu isə erməni qəsbkarlarının bizim xalqın tarixinə qarşı qısqanclıq, paxıllıq hissindən irəli gəlir. [URL 4]

Bu tarixi yalnışlıq, SSR dövründə rus-erməni birləşmələrinin hakimiyyəti təmsil edərək Azərbaycan, eləcə də Türk xalqlarının başına gətirdiyi oyunların yalnız kiçik bir nümunəsidir. Baxmayaraq ki, "Zəngəzur" sözü özü belə türk mənşəli sözdür, "Mahmud Kaşğari, Fəzlullah Rəşidəddin, Abbasqulu ağa Bakıxanov və digər bu kimi dünya şöhrətli tarixçilərin əsərlərində bu türk tayfasının adına tez-tez rast gəlinir" və "zur" – qədim türk dillərində dağlıq, yarğanlıq, qayalıq kimi anlamları ifadə etməklə, zəngilərin yaşadığı dağlıq ərazinin relyefini səciyyələndirir, erməni xalqı həyasızcasına bu tarixi faktları danır" [URL 2]

Özünü qədim xalq kimi dünyaya sırıyan bu məxluqlar qədim Azərbaycan torpaqlarına və Cənubi Qafqaza I Pyotrın dövründə (1724-cü ildən) köçürülür. Bu ərazilərin etnik tərkibi süni surətdə dəyişdirilir. Suni şəkildə yaradılan Ermənistan dövlətinin tarixi isə 1918-ci ildən başlayır və havadarlarının gücü və ədalətsiz mövqeyi hesabına Azərbaycandan qopardıqları ərazilərin hesabına yaranır. Bu erməni haqsızlığının az bir hissəsidir. Ömür boyu Türk millətinə həsəd aparan və dünyada şovnizmin ən qəddar nümunəsi olan bu xalq hələ 1905-1907- ci illərdən başlayaraq 1914-1916, 1918-1920, 1948-1953 və 1988-ci ilə kimi xalqımızın başına müsibətlər gətirmişlər. 1992-ci il fevral ayının 26-na keçən gecə Xocalıda baş verən soyqırım isə müasir dünyanın gözü qabağında törədildi.

Erməni vəhşiliyi həmçinin folklor nümunələrində, "Qaçaq Nəbi" dastanı da daxil olmaqla əksər dastanlarımızda dərin qatlarda özünə yer alır. Məsələn, Mehdinin ölümü, Nəbinin qaçaq düşməsi hadisəsində bəzən erməni faktorunun mövcudluğu, erməni naşalniklərin xalqın başına açdığı zülm haqqında müxtəlif rəvayətlər mövcuddur. Dastana nə qədər toplayıcı müdaxiləsi olsa da, Sovet ideologiyasının təsiri özünü göstərsə belə, bəzi folklorşünasların materiallarında (Əliheydər Tahirov, Bəhlul Behcət və başqaları) ideoloji örtüyün altında erməni və türk xalqları arasında etnik qarşıdurma özünü azda olsa göstərə bilir. Məsələn, Həsən Qasımov variantının əvvəlindən sona qədər erməni əsilli Aşot kirvə ilə Nəbinin ailəsinin möhkəm dostluğundan bəhz edən bir çox hadisələrin yer almışdır. Dastanda erməni ailəsi ilə Nəbigilin dostluğu, Nəbinin erməni kəndlərinə tez-tez yardım etməsi, həbsxanada onun bir erməni qoca tərəfindən azad edilməsi epizodları qabardılır. Sovet ideologiyası ruhunda təhlil aparan folklorşünas Rüstəm Rüstəmzadə Nəbinin Aşot kirvənin evində dünyaya gəlməsi, ona məhz kirvənin Nəbi adı verməsi səhnəsini nümunə göstərərək "Dastanın ən xarakterik cəhətlərindən biri onun beynəlmiləl ruhda yaradılmasıdır" [Rüstəmzadə, 1984, s.72] söyləyir. Həqiqət budur ki, Həsən Qasımov variantını təhlil edən zaman siyasi mühitin, toplayıcı müdaxiləsinin dastana təsiri açıq şəkildə özünü göstərir. "Göründüyü kimi, dastanda xalqlar dostluğunun tərənnümü təsvir olunan ilk hadisələrdən başlayaraq qabarıq bir şəkildə verilmişdir. Dastanda erməni xalqı ilə Azərbaycan xalqı arasında yaxınlıq bir sıra başqa epizodlarda da öz əksini tapmışdır. Lakin bunlar ötəri olmayıb, obrazlı bir dildə, inandırıcı, obyektiv formada qələmə alınmışdır" [Rüstəmzadə, 1984, s.72-73]. Nəbinin ermənicə danışması, erməni xalqı ilə yaxın dostluğu xalqın yaddaşına həkk olan faktların qarşısını ala bilmişdir. Buna baxmayaraq Əliheydər Tahirov variantında, Bəhlul Behcətin əsərində ideoloji örtüyün altında erməni xalqı ilə etnik qarşıdurma özünü azda olsa göstərə bilir. Beynəlmilər məsələsini folklorşünas Vaqif Vəliyev də qabartmış, "Nəbinin dəstəsindəkilərin dinləri və dilləri ayrı olsa da, onları bir arzu və bir amal birləşdirir. Bu birlik əsərin beynəlmilər ruhunu təşkil edir" söyləmişdir [Vəliyev, 1985, s.346] Vaqif Vəliyev burada Hayık, Qaraped, Telli Qara obrazları nəzərdə tuturdu. Lakin bir çox sənədlərdən, həmçinin, Nəbi haqqında yazılan digər dastan variantlarından məlumdur ki, Nəbinin bir neçə ağası erməni olmuş və professor İsrafil Abbaslının fikrincə desək "görünür, məhz bu səbəbə görə də Qaçaq Nəbi hələ gənc yaşlarından ermənilərin psixologiyasını, mənəvi aləmini yaxından müşahidə etmiş, onlara olan barışmaz münasibəti isə dastanın Ə.Tahirov variantında, həmçinin B.Behcətin əsərində bu və ya digər formada öz əksini tapmışdır" [Abbaslı, 2005, s 13]. Sovet ideoligiyasına xidmət edən yalançı xalqlar dostluğu motivinin Həsən Qasımov variantında qabardılmasına səbəb heç sübhəsiz həmin dövr üçün siyasi rol oynayır və Nəbinin ermənilərə qarşı olan mənfi münasibəti gizlədilməyə çalışılırdı. "Bu dastanın sifarişlə yazıldığı bir fakelore örnəyi olduğu ermənilərin, igid, dostluğa sədaqətli, fədakar göstərilmələri olmuşdur. Hətta Nəbi də ermənicə bilir və erməni ilə ermənicə danışır. Ancaq yenə də sözlü tarixdən gələn bəzi həqiqətlər az da olsa qorunmuşdur" [Bayat, 2011, s. 27]. Məsələn, Nəbinin qardaşı Mehdinin erməni kəndində mühasirəyə düşməsi və erməni tərəfindən hiylə ilə arxadan vurularaq öldürülməsi fakt olaraq xalq yaddaşında, rəvayət və əhvalat örnəklərində də özünə yer alır [Behcət, 2011, s. 216]. "Sisyan mahalının kəndlərindən olan Əliqulu adlı kənddə yaşayan böyük və çox dövlətli alverçi ermənilər Nəbinin tutuması və ya öldürülməindən ötrü çox canfəşanlıq edirdilər. Onlar çar hökuməti məmurlarına kömək göstərir, onlara pul, at verir və Qaçaq Nəbinin hərəkətindən xəbər öyrənib hökumətə çatdırırdılar" [Behcət, 2011, s 191] epizodu isə tarixi faktdır. Professor Füzuli Bayatın digər qeydində deyilir ki, "Əfsanə və rəvayətlərdə, bayatı və mahnılarda təhrif az olsa da, burada da mətnə toplayıcı müdaxiləsi xalq yaddaşının qarşısını almışdır. Buna baxmayaraq ideoliji örtüyün altında türk-rus, türk-erməni etmik qarşıdurması açıq görünür" [Bayat, 2012, s 264].

Bəhlul Behcətin Kinkor bəy, Vedrus bəy obrazı xalqımızı çapıb-talayan erməni cəlladlarının əsl simasıdır. Elə dastanda rast gəldiyimiz Qara Nəbi də öz xalqını Azərbaycanlı adı ilə qıran, təhqir edən

quldur obrazıdır. Tarixi faktlar Qara Nəbinin simasızlığını göstərmiş, əvvəllər həmin quldurun milliyəti açıqlanmasa da, sonradan professor Azad Nəbiyev məsələyə aydınlıq gətirmişdir. "Tarixi faktlar göstərir ki, XIX əsrin ikinci yarısında gəlmə ermənilər arasında "yol kəsib, quldurluq eləyənlər" vardı. Onlar içərisində Qara Nəbi kimi özünü qələmə verən Aşot Qriqoryan və Kərəm adı altında yaşayan Maştop Sarkisyan ermənilərin qanını içən, kəndlərini yandıran, qız gəlinini özü ilə dağlara götürüb gedən quldurlar idi" [Nəbiyev, 2006, s.587]. Nəbi quldurluğu özünə yaraşdırmazdı. Ona görə də

Bəylərlə yoldaşdı quldur oğrular,

Düşməndi onlara bütün doğrular,

Gərək dağıdılsın tamam qurğular.

Öyrənin onların bir-bir yerini,

Salamat buraxmayın siz, heç birini!" [Azərbaycan folkloru külliyyatı, 2011, s.130] deyərək Qara Nəbidən intiqamını alır və adını ləkələməyə qoymur.

Nəbiyə düşmən münasibəti bəsləyən ermənilər hətta "Qanlı zəmi" filminin çəkilişinə belə mane olmuşlar. Filmin rejissoru Əbdül Mahmudov qeyd edir ki, "O vaxtlar vəzifə sahibi olan ermənilər filmin istehsalata buraxılmasına əngəl törətməyə başlamışdılar. Səbəb olaraq Qaçaq Nəbinin vaxtilə ermənilərə divan tutmasını göstərmişdilər. Lakin onlar Qaçaq Nəbiylə başqa bir qəhrəman olan Qara Nəbini qarışdırmışdılar. Uzun çək çevirdən sonra ermənilər məqsədlərinə çata bilmədilər. Yalnız filmin adının dəyişdirilməsinə nail ola bildilər" [URL:5]. Göründüyü kimi erməni xisləti hər yerdə özünü göstərir.

Qaçaq Nəbi" dastanını tədqiq edən Şamxəlil Məmmədov qeyd edir ki, Nəbi Novruz bayramı ərəfəsində ənənəyə uyğun olaraq camışını döyüşdürür. "Onun camışı erməni İsvonçin camışını meydandan qovur. Alqış sədalarından hiddətlənən kinli erməni Nəbinin camışını güllə ilə vurub öldürür. Nəbi də borclu qalmayır, əvəzini İsvonçu gəbərtməklə çıxır" [Məmmədov. 1949, s.231] İsvonçun rus kazakları ilə yaxın olan qohumları isə Nəbini təqib etməyə başlayır. Beləliklə, Nəbi öz elindən qaçaq düşür. Eməni xisləti hər zaman Azərbaycan tarixində xüsusi iz buraxmışdır. Məsələn, "Qaçaq Usuf" dastanında Sahak, Kinkor obrazları timsalında bu xalqın bədxahlığı, namərdliyi ifşa olunur.

Çaqqalsan get hinə xəlvəti giriş,

Aslan ormanından gec deyil sürüş,

Kişilik kökündə varmı, başa düş,

Gəl vermə başını bada, erməni" [Ağbaba, 2012, s 214].

İstər bu şeir parçası, istərsə də "mərd adamlar pəhləvan olar, ermənidən satqın, xayın olar" [Tacir Səmimi, 2020, s. 15] ifadəsi milli psixologiyada bir millət kimi onların yaltaqlığının, satqınlığının, qorxaqlığının ifadəsidir.

Müasir dövrdə isə Hacı Nərimanoğlu ermənilərin xislətindən gələn xəyanətkarlığın Nəbi tərəfindən bağışlanmadığını və Nəbinin ermənilərə qarşı xüsusi nifrətinin olduğunu məqaləsində faktlarla əsaslandırır. Qardaşı Mehdinin ermənilər tərəfindən öldürülməsindən hiddətlənən Nəbi ermənilərdən qisas alır. "Sonra oradan Moses Markarov adlı varlı ermənin həyətinə gələn Qaçaq Nəbi .... Moses Makarovdan üç tüfəng, Osip Sarkisovdan bir tüfəng və 57 patron , habelə onların atlarını alaraq çıxıb getmişdi" [Həsənoğlu, 2021, s.41]. Hacı Nərimanoğlu Nəbi ilə bağlı bir çox şayələrə aydınlıq gətirmiş (Həcərin ermənyə ərə getməsi, Nəbinin kürd olması və s) Nəbi ilə bağlı araşdırma işini bu cür təsvir etmişdir. "Kitab Azərbaycan xalqının milli azadlıq hərəkatı və qəhrəmanlıq tarixində xüsusi yeri olan, 25 ildən çox rus çarizminin işğalçılıq siyasətinə, bu imperiyanın əlaltısı olan nankor, xəyanətkar erməni hampalarına, sapıözümüzdən olan zalım xan, zülmkar bəylərə qarşı silahlı partizan mübarizəsinin başında duran Qaçaq Nəbiyə və ən yaxın silahdaşı, ömür-gün, əqidə yoldaşı qaçaq, qoçaq Həcər xanıma həsr olunub" [Həsənoğlu, 2021, s.41] Hacı Nərimanoğlu da qeyd etdiyi kimi Nəbinin dövründə xalqımıza qarşı ermənilərin ədalətsiz mövqeyi, satqınlığı, qaniçənliyi onun qaçaq düşməsinə və fəaliyyəti dövründə onlarla mübarizə aparmasına səbəb oldu. Nəbinin yaşadığı və mübarizə apardığı Zəngəzur mahalında erməni vandalizmi hökm sürmüş və öz havadarlarına arxalanan ermənilər at

oynatmışdır. Amma görünən odur ki, qədim türk xalqına qarşı nifrət, kin-küdurət onları məhvə doğru aparacaq.

Şanlı Azərbaycan ordusu və Ali baş komandanının ermənilərə "DƏMİR YUMRUQ" adı ilə verdiyi dərs onların yaddaşına ömürlük həkk olundu. Tarixə "44 günlük" müharibə adı ilə düşmüş şərəfli tariximiz xalqımızın başını millət kimi uca elədi.

Zəngəzurun Azərbaycandan qoparılması, zorla əlimizdən alınması yaxın tarixə təsadüf edir və arxiv materiallarında yer almaqdadır. Amma biz o torpaqlara çox yaxın zamanda qayıdacayıq. Preziden İlham Əliyevin söylədiyi kimi "Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır. Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq. Bizim doğma torpağımız Zəngəzurdur, bizim doğma torpağımız Göyçə mahalıdır, İrəvandır. Biz qayıdacağıq, əlbəttə". [URL 7] Bu prosesi prezident İlham Əliyevin fərmanı ilə imzalanan Qarabağ və Şərqi Zəngəzur iqdisadi rayonunun yaradılması ilə bağlı fərman tezləşdirəcək.

Nəticə: Tarixi Azərbaycan torpağı olan Zəngəzur Azərbaycanın qaçaq qəhrəmanı Qaçaq Nəbi və Qoçaq Həcərin doğulub boya-başa çatdığı və haqsızlığa qarşı mübarizə apardığı ərazilərdir. Ermənilər həmin əraziləri SSR dövründə bizdən zorla almış və Ermənistan adlı süni dövlət yaratmışlar. Lakin Azərbaycan xalqı bu haqsızlığı unutmayaraq Qaçaq Nəbi qəhrəmanı kimi qəhrəmanlar yetişdirir və Mübariz, Polad Həşimov, Xudayar Yusifzadə və başqa igidlərimizin qanı hesabına tarixi əraziləri qaytarır və qaytarmaqda davam edəcək....

Ədəbiyyat siyahısı

Allahmanlı, M. Q. Folklorşünaslıq məsələləri / M. Allahmanlı. - Bakı:

Elm və təhsil, - 2012. - 284 s.

Ağbaba, A.İ. Ağbaba-Çıldır aşıq mühiti. / A. Ağbaba. Bakı: Elm və təhsil, - 2012,- 369 s.

Azərbaycan dastanları: / red. M.H.Təhmasib, tərt. ed. Nəbiyev A. - Bakı: Gənclik, -1977. - 171 s.

Azərbaycan folkloru külliyyatı. Dastanlar. Qaçaq Nəbi dastanı: [30 cilddə] (kitab 16). / tərt.ed. Axundov Ə. / Bakı: Elm və təhsil, - c.26. - 2011. - 428 s.

Bayat, F.X. Qaçaq folkloru sosial-iqdisadi və siyasi-mədəni kontekstdə./F.Bayat. – Bakı: Elm və təhsil, -2019. - 304 s

Bayat, F.X. Sosial bandit nəzəriyyəsi baxımından qaçaqçılıq hərəkatı və qaçaq dastanları // -Bakı: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər -2011. №36, - s. 22-29

Bayat, F.X. Folklor dərsləri. / F.Bayat. - Bakı: Elm və təhsil, - 2012. - 424 s.

Behcət, B.M. Qaçaq Nəbinin tarixi / B.Behcət, - Bakı: Çıraq, - 2011. - 288 s.

Behcət, B.M. Qaçaq Nəbinin tarixi / B.Behcət, - Bakı: Çıraq, - 2011. - 288 s.

Köhnə kişilər (Ağbaba folklorundan örnəklər)/ tərt.edən Tacir Səmimi (Qorbanov). –Bakı: SkyG, -2020. -112 s.

"Qaçaq Nəbi". (toplayıb tərtib edəni H.Qasımov). Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı, -1960. -75 s.

"Qaçaq Nəbi".(toplayıb tərtib edəni Ə.Axundov) -Bakı:Azərnəşr,-1961.- 369 s

"Qaçaq Nəbi". (tərtib edəni İ. Abbaslı). - Bakı: Lider, -2005. - 96 s.

"QaçaQ Nəbi". (toplayıb tərtib edəni Ə. Tahirov) Bakı: Sovet Yazıçılar İttifaqı,-1938, -49 s.

Məmmədov, Ş.H. Azərbaycan folkloru /ali məktəblər üçün dərs vəsaiti. Ş.Məmmədov. Bakı: Nurlan, -2008. - 325 s.

Nəbiyev, A.M. Azərbaycan xalq ədəbiyyatı: II hissə / Nəbiyev A. - Bakı: Elm, -2006. - 685 s.

Nərimanoğlu, H. Qaçaq Nəbi tarixdə, elmi, yazılı və şifahi ədəbiyyatda, incəsənətdə./ H.Nərimanoğlu. – Bakı: Mütərcim, 2021. –s.116

Rüstəmzadə, R. B. El qəhrəmanları xalq ədəbiyyatında. Bakı:Gənclik, -1984. -172s.

Vəliyev, V.Ə. Azərbaycan folkloru: dərs vəsaiti. / V.Vəliyev. - Bakı: Maarif, -1985. - 414 s.

Elektron resurslar:

Azərbaycan tarixi şəxsiyyətlərinə dair polemika. URL 1: https://musavat.com/news/azerbaycanin-tarixi-sexsiyyetlerine-dair-polemika_150787.html

Zəngəzur tarixi Azərbaycan torpağı"

URL 2: https://aztc.gov.az/az/posts/id:1310

Zəngəzurun Ermənistana verilməsi.

URL 3: https://science.gov.az/news/open/16645

Müstəqil dövlətimizin 30 ili ərzində erməni saxtakarlığından mədəni irsimiz, Zəngəzur abidələri. URL 4: https://www.baki-xeber.com/siyaset/125464.html

Qanlı zəmi filmi.

URL 5: https://az.wikipedia.org/wiki/Qanl%C4%B1_z%C9%99mi_(film,_1985)

Orucova, S.H. "SMOMPK" məcmuəsində Azərbaycan xalq qəhrəmanlıq mahnıları. [Elektron resurs] Folklorşünaslıq məsələləri. Bakı Dövlət Universiteti. -2012. - s. 68-76

URL 6: https://www.google.az/url?sa=t&rct=j&q=&esrc=s&source=web&cd=&ved=2ahUKEwj_IHb0uz4AhXZYPEDHdMRDEcQFnoECAMQAQ&url=http%3A%2F%2Fstatic.bsu.az%2Fw8%2FFolklorwunasliq%2F2012%2520-%252010%2F68-76.pdf&usg=AOvVaw1K8hZknlnhwk9gNGLxnbmw

Prezident İlham əliyevin Zəngəzurla bağlı mesajı.

URL 7: https://modern.az/az/news/287042/ilham-eliyevin-zengezurla-bagli-mesaji-deputat-bunun-kime-unvanlandigini-serh-etdi

THEMATIC WORD GROUPS OF KARABAKH DIALECTS (CLOTHING NAMES).
QARABAĞ ŞİVƏLƏRİNİN TEMATİK SÖZ QRUPLARI (GEYİM ADLARI).

Azərbaycan Dövlət Pedaqoji Universiteti
Müasir Azərbaycan dili kafedrasının doktorantı
Məmmədov Hümbət Məmməd oğlu
humbatm@mail.ru

Xülasə

Təqdim etdiyimiz materialda Qarabağ bölgəsinin etnoqrafik xüsusiyyətləri haqqında məlumat verilir. Tədqiqatımızda Qarabağ şivələrinin etnoqrafik leksikası tematik söz qrupları şəklində təqdim edilmişdir. Geyim mədəniyyətinin tarixi haqqında məlumat verilir və ilk geyimlərin hazırlanmasında bitki lifləri, heyvan dərisi və qalın yarpaqlardan istifadə edilməsi qeyd olunmuşdur.

Qarabağda vaxtilə fəaliyyət göstərmiş bazarlar, parça adları, tikiş üsulları haqqında zəngin məlumat var. Məqalədə Qarabağ geyimlərinin N.Gəncəvi, M.P.Vaqif və s. şairlərimizin əsərlərində adının bədii boya kimi keçməsi həm də real etnoqrafik vahidlər kimi tarixi reallığı əks etdirir. Bizim tədqiqatda Qarabağ geyimləri: Qadın; kişi; uşaq geyimləri olmaqla qruplaşdırılır. Tədqiqatda yeri gəldikcə geyimlərə əlavə olunan bəzək və əməli əhəmiyyətli əşyalardan da bəhs olunur. Geyimlər alt, üst, baş və ayaq geyimləri kimi tədqiqata cəlb olunmuş və onlarında növləri fərqləndirilmişdir.Tədqiqatda geyimlərin müxtəlif sosial zümrələri fərqləndirmək baxımından da çoxçeşidli olması göstərilmişdir. Məqalədə geyimlərlə bağlı informatorlardan topladığımız materiallar da tədqiqata cəlb edilmiş, şivələr arasında oxşar və fərqli cəhətlər müəyyənləşdirilmişdir.

Tədqiqat zamanı müqayisəli, təsviri və dilçilik coğrafiyası kimi dilçilik metodlarından istifadə edilmiş, sosiolinqvistik və etnolinqvistik yanaşma tətbiq edilmişdir.

Açar sözlər: Tematik söz qrupları,alt geyimləri, üst geyimləri, geyimlərə əlavə olunan əşyalar, parça adları, tikiş üsulları.

Abstract

The material we have presented provides information about the ethnographic features of the Karabakh region. In our study, the ethnographic lexicon of Karabakh dialects was presented in the form of thematic word groups. Information is given about the history of clothing culture and the use of plant fibers, animal skins and thick leaves in the preparation of the first clothes is mentioned.

There is a wealth of information about markets, fabric names, and sewing methods that once operated in Karabakh. In the article, N. Ganjavi, M.P. Vagif and others of Karabakh clothing. the passing of his name as artistic paint in the works of our poets also reflects the historical reality as real ethnographic units. Karabakh clothing in our study: Women; man; grouped by children's clothing. The study also mentions decorative and practical items added to clothes as appropriate. Clothes such as bottom, top, head and foot clothes were involved in the research and their types were distinguished. In the research, it was shown that the clothes are diverse in terms of distinguishing different social classes. In the article, the materials we collected from the informants regarding clothes were also involved in the research, and the similarities and differences between the dialects were determined.

Linguistic methods such as comparative, descriptive and linguistic geography were used during the research, sociolinguistic and ethnolinguistic approaches were applied.

Keywords: Thematic word groups, underwear, outerwear, clothing accessories items, fabric names, sewing methods.

Qarabağ bölgəsi əsrlər boyu müstəqil etno – mədəni və tarixi etnoqrafik bölgə kimi özünün spesifikasına, məhəlli- lokal xüsusiyyətlərinə, mədəniyyət və məişət tərzinin özünəməxsusluğuna görə Azərbaycanın digər tarixi – etnoqrafik bölgələri arasında xüsusi yer tutmuşdur [8,s.6]. *Etnoqrafiya – xalqın yaşayışını, gündəlik həyat tərzini öyrənən, əmək fəaliyyətini təsvir və tərənnüm edən, onun arzu və istəklərini araşdıran elm sahəsidir*. Etnoqrafik leksik vahidlərin müxtəlif sahələr üzrə tematik qruplar şəklində tədqiq etmək son dərəcə əhəmiyyətli nəticələr əldə etməyə xidmət edir. Müxtəlif elmi ədəbiyyatlarla tanışlıq zamanı, bəzən etnoqrafik leksika, etnoqrafik leksik vahid terminləri əvəzinə dilçilik ədəbiyyatında "etnoqrafizm" termininin işlənməsi hallarına da rast gəlirik [9,s.15]. Etnoqrafizmlər o mənada işlədilir ki, həmin sözlər yayıldığı ərazinin məişəti, xalqın, etnik qrupun maddi-mənəvi dəyərlərinin əsasını təşkil edir. *Etnoqrafik vahidlər çağdaş ədəbi dillərin, dialektoloji və tarix lüğətlərində təqdim olunmalıdır* [21,s.16]. Azərbaycanda etnoqrafik məlumatlar toplanması elmi şəkildə əsasən XIX əsrdən başlasa da, bu elm sahəsinin sistemli öyrənilməsinə son dövrlər başlanılmışdır. İ.Məmmədli Azərbaycan dilinin etnoqrafiyası monoqrafiyasında etnoqrafik leksikaya *məişət leksikasını, maddi və mənəvi mədəniyyətə aid sözləri, adət-ənənə ilə, folklorla bağlı sözləri, frazeologizmləri və terminləri aid edir* [9,s.22].

Bütün bu deyilən fikirləri yakunlaşdıraraq, Qarabağ şivələrinin etnoqrafik leksikasını tematik söz qrupları şəklində təqdim olunmasını uyğun bilir və aşağıdakı paraqraflarda verilməsini məqbul hesab edirik.

Geyim adları

Geyim mədəniyyətinin böyük təkamül və inkişaf yolu keçməsində xalqın yaradıcı əməyinin, emprik bilik və təcrübəsinin nəsildən- nəslə əmanət kimi ötürülən peşə-sənət vərdişlərinin rolu da inkaredilməzdir. Mütəxəssislərin fikrincə, *geyim mədəniyyətinin əsası e.ə 40 – e.ə 25-ci minilliklərə təsadüf edir* [8,s.11].

"Azıx mağarasından tapılmış eksponatlar, xüsusən də daşdan düzəldilmiş əmək alətləri sübut edir ki, burada – Qarabağda yaşamış insanlar hələ "Quruçay mədəniyyəti"nin ilk dövrlərində müəyyən geyim elementlərindən istifadə etmişlər" [2,s.26]. Təsadüfi deyil ki, Azərbaycanda müşahidə edilən doqquz iqlim tipindən altısına Qarabağda rast gəlinir.

Azərbaycanda eləcə də Qarabağda çoxçeşidli geyim növlərinin yaranmasında təbii-coğrafi şəraitin mühüm rolu olmuşdur. Bundan əlavə, geyim mədəniyyətini formalaşdıran amillər sırasına xalqın mənəvi-əxlaqi dəyərləri, ideoloji baxışları, dünyagörüşü, sosial-iqtisadi vəziyyəti və mədəni həyatı da daxildir. "Etnoqrafik leksikanın qədim və zəngin leksik qruplarından olan geyim adları – geyimlər yalnız xalqımızın mənəvi-psixoloji həyatını deyil, etnik və sosial zümrələrə ayrılmasını da əks etdirmiş və müxtəlif tədqiqat obyektlərindən biri kimi dilçilik baxımından da tədqiq olunmuşdur" [18,s.145]. Dünyada ilk məskun ərazilərdə olduğu kimi, Azərbaycan ərazisində məskunlaşmış ilk sakinlərin geyimləri təbiətdən əldə etdikləri materiallardan – lifli bitkilər, dəri, enli və qalın yarpaqlar və s. olmuşdur. *İstifadəsinə görə geyimlər büründək, sarıq, örtmə və geymə kimi fərqli variantlarda olmuşdur* [8,s.10-12].

Dəriişləmə - dəriçilik eramızdan əvvəlki əsrlərə təsadüf edir ki, Qarabağda da bu sahənin qədim bir sənət sahəsi olduğuna, geyim elementi kimi istifadəsinə rast gəlirik. Ağdam rayonunun Sarıçoban,Tərtər rayonunun Borsunlu və Bəyimsarov kurqanlarından döyüşçüyə məxsus atributların və at yəhəri – qayış dəstinin metal lövhəsi altından tapılan dəri qalıqlarının eramızdan əvvəl II minilliyə aid edilir. "Ağcabədi rayonunda Salmanbəyli kəndi yaxınlığında üçtəpə adlanan

sahədə arxeoloq A.A. İessen tərəfindən çoxsaylı dəri məmulatlarının qalıqları (kəmər və ayaqqabı dəstləri) tapılmışdır ki, onların da üzəri müxtəlif qızıl, gümüş, tunc və dəmir bəzəklərlə bəzədilmişdir. Həmin tapıntılar eramızın VI – VIII əsrlərinə aid edilir" [8,s.13].

İlkin orta əsrlərdə toxuculuq sənəti bölgənin baş şəhəri sayılan Bərdədə özünün yüksək inkişaf mərhələsinə çatmışdır. "Qarabağın baş şəhəri Bərdə ərəb müəllifi ibn Hövqəl tərəfindən "Ümmun ran" – "Arranın anası", Əl Müqəddəsi tərəfindən "bu vilayətin Bağdadı" adlandırılmışdır.Qarabağın məşhur "Kürkiy" bazarı burada yerləşmişdir" [12,s.75].

XII-XIII əsrlərdə Beyləqanda "Kəzzkaşidə" adlanan ipək parça növü məşhur idi.

"Geyimlər gündəlik və mərasim geyimləri kimi səciyyə kəsb etmiş, mərasim geyimlərində motivləşmə dərinləşmişdir" [2,s.166-167]. Qarabağa səyahət etmiş alman səyyahı və diplomatı Adam Oleari (XVII əsr) Aran – Qarabağ haqqında danışarkən qeyd edir: "Əksəriyyətin xüsusilə sadə adamların Qarabağ adlandırdığı Aran iki yaxşı çay – Araz və Kür arasında yerləşən vilayətdir... Bura çox varlı və məhsuldar ölkədir. Burada ipək xüsusilə boldur" [19,s.698-699]."Qarabağda hasilə gətirilən : mov, darayı, qəsəbə, qanovuz, çarqat, aloyşa və müxtəlif çeşidli iplik parçalara əhali arasında görkəminə və nəcib xüsusiyyətlərinə görə adlar da verilmişdir. "alışdım-yandım", "hacı, mənə bax !", "dur,məni gəzdir", "küçə mənə dar gəlir", "qonşu bağrı çatladan", "gecə-gündüz", "ay-ulduz", "sürüşdüm-düşdüm", "pinti məni geyməz", "dəymə gülüm tökülər" və s. növlərdə mürəkkəb söz,söz birləşməsi və cümlə tipində adlandırmada xalqın, xüsusilə də qadınların verdiyi adlar öz əksini tapır. [8,s.23].

Qarabağ geyimləri söz ustalarının əsərlərində də gözəlin vəsfində geniş tərənnüm olunmuşdur. XVIII əsrdə Qarabağ xanının Vəziri olmuş M.P.Vaqifin lirik şeirlərində xalq geyimlərinin geniş çeşidi, rəngi, əlvanlığı və forma müxtəlifliyinin poetik-bədii əksi fikrimizi əsaslandırmağa şərait yaradır.

Libasın əlvandır,**çarqat** qıyqacı,
Saçaqlar yaraşır qıraqlarından.

Xoş yaraşır sənə diba **nimtənə,**
Bu bəzəyin yenə əlaməti var [11,s.52-67].

Qarabağın ənənəvi xalq geyimlərinin hasilə gətirilməsində bölgənin ipəkçiliklə məşğul olan kəndlərində (Lənbəran, Kolanı, Köçərli, Kürdbərdə, Ağdam icması, Kərkicahan və b.) "keci" sap istehsalının inkişafı əsas roloynamışdır.

"Çuxa, şalvar, köynək, çarşab// çarşaf qurşaq// qurşax və s. geyim tipləri "kümdar" qadınlar tərəfindən ev şəraitində hazırlanırdı". "XIX əsr xalq geyimlərini mərasim geyimləri (toy, matəm, bayram,qonaqlıq); gündəlik geyimlər; əhalinin müxtəlif sosial qruplarının peşə mənsubiyyəti ilə əlaqədar geyimlər; mövsümü səciyyəli geyimlər; dini zümrələrə mənsub geyimlər" kimi fərqləndirilərək qeyd edilir. [13,s.92].

Qarabağın qadın geyimləri

Azərbaycanın ənənəvi qadın geyimlərində bölgələrə məxsus müəyyən elementlərə yer verilsə də qadın geyimləri tip olaraq, ümumi səciyyəlidir. Aparılmış etnoqrafik tədqiqatların nəticələrini ümumiləşdirdikdə və fərdi sorğu yolu ilə əldə olunmuş materiallardan anlaşılır ki, Qarabağın qadın geyimləri həmişə *alt paltarı* və *üst paltarı* adları ilə iki növdə olmuşdur. Qadın alt paltarı dəstinə: *Alt köynəyi*, *şəltə* (gödək tuman), elat qadınlararasında yayılan *cütbalaq* (taylı tuman) daxildir [8,s.28]. "Rahat hərəkət etmək üçün balaqları gen olan bu geyimi tə dqiqatçılar köçmə həyat tərzi yaşayan (yaylaq-qışlaq) xalqlarda meydana gəldiyini vurğulayırlar" [17,s.133]. Qarabağ qadınları altdan cütbalaq,darbalaq və onun üstündən isə "şəltə" adlanan geyim növündən də istifadə edirdilər. Bəzən *şəltənin* üstündən *"ara tuman"* adlanan digər bir geyim də geyilirdi (inf. Cəbrayıl). Bölgənin qadın üst geyim tiplərindən əsas hesab olunanlarından biri də "üst köynəyi"dir. Üst geyim dəstinə daxil olan, tuman (alt tumanı, ara (orta) tumanı, üst tumanı olaraq) üç çeşiddə

hazırlanırdı. Qadın üst tumanı "büzməli" və "qırçınlı" olmaqla yeddi (7) bəzi hallarda isə on (10) "taxta" parçadan hazırlandığı üçün *"taxtalı tuman"*da adlandırılırdı (inf.Laçın, Füzuli). "Qadın tumanlarının ətək hissəsinə "balıq" adlanan əlavə parça tikilirdi.Tumana tikilən balıq başqa rəngli parçadan, həm də eninə tikildiyinə görə,etnoqrafik ədəbiyyatda "*qiyqac balıq*","*qıyqac köbə*" kimi qeyd olunur" [8,s.30].

İnformatorların söylədiklərinə görə, Qarabağ bölgəsində sərt qış aylarında qadınlar orta (ara) və üst tumanın arasından *"yorğan tuman"*da geyinirdilər.Sırınmış yorğanı xatırladan belə tumanları ev təsərrüfatı ilə məşğul olanlar,yaşlı və səhhətində nisbətən problem olan qadınlar geyirdilər(inf. Füz.). Qadın geyimləri gündəlik və bayramlıq (xeyir-şər paltarı) olmaqla iki dəstdə hazırlanırdı. Geyim dəstini tamamlayan Qarabağın qadın geyim elementlərindən biri də "döşlük" və " önlük" adlanır. Adından da göründüyü kimi, sinədən başlamış, dizin aşağı hissəsinə qədər, qadın paltarının qabaq tərəfini örtür. "Adətən belə önlük//döşdükləri evində xeyir işi olan ev sahibi köməyə gələn qadınlara verirdi"(inf. Füzuli).

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda Qarabağ bölgəsinə aid kostyumlar da yer almaqdadır.(EF 1720 – 1721;1600 -1601; 1586 – 1587 ; 3364 – 3365 ; 86 46) Fond materialları içərisində arxalıq və tumandan ibarət kostyumların üstünlük təşkil etməsi arxalıqların Qarabağ qadınlarının geyim dəstində sevilməsini təsdiq edir.

Etnoqraf A.Ə. Əsədovanın tədqiqatlarından oxuyuruq: "Çiyin geyimi olan "qaftan" son dövrlərdə çiyin və bel geyimlərinə bölünərək, qofta – tuman adlandırılmışdır. "Kitabi- Dədə qorqud" oğuzlarının kişili-qadınlı istifadə etdikləri (ortaq geyim) əsas geyim tipi olan "qaftan" uzun tarixi dövr ərzində öz üstünlüyünü qoruyub saxlamışdır" [4,s.61]. Söylənmiş fikirdən belə anlaşılır ki, mintənə (nimtənə), çəpkən və arxalıq qaftanın təkmilləşmiş tipləridir. Nimtənə (mintənə) haqqında yazılı məlumatlar XII əsrə qədər gedib çıxır. N. Gəncəvinin əsərlərində " nimtənə" adlı geyim növündən söhbət açılır. "Sirlər xəzinəsi" poemasında : " onların donu (nimtənəsi) başdan dizə qədərdir" [5,s.186].

Qarabağ qadınlarının geniş istifadasində olan çəpkən / çəfkən - üst geyim növü olub, astarlı tikilir və hətta yüngül sırınırdı. Çəpçənlərin rəng seçimi də qadınların yaşına görə çeşidlənirdi.*Yaşdı qadınnar adətən göy, palıdı, bənəvşəyi və qara parçalardan tikilən çəfkənnər gə:rdilər. Cavan gəlin və qızdarsa qırmızı, göy ,yaşıl irəx'lərə üstünnx' verərdilər* (inf. Şuşa.).

sallamaqol çəpkən Qarabağ üçün daha xarakterikdir."Qarabağ bölgəsində qadınların istifadəsində olan üst geyim tiplərindən biri də **Baharıdır** tədqiqatçılar Azərbaycanın digər etnoqrafik bölgələrində **Küləcə** adı ilə tanınan qadın üst geyiminin bir variantı olduğunu qeyd edirlər" [13,s.106]; (inf. Tərtər, Ağcabədi., Şuşa).

Qadın üst geyim növlərindən biri də arxalıq olmuşdur. "Qarabağ arxalıqlarını Azərbaycanın digər bölgələrinin eyniadlı geyim tiplərindən əsasən üç əlamət fərqləndirir: yaxasının buta və ya oval (oyma) formada olması, qatlama ətəyi və nilufər qolları. XIX – XX əsrlərdə Şirvanda oyma yaxalıqlı arxalıqların yayılması Qarabağdan Şirvana köçmüş əhalinin gətirdiyi geyim tipidir" [10,s.88-90]. "Kürdü" qarabağlı qadınların mövsümi səciyyə daşıyan üst geyim tiplərindən biri idi. Qarabağda kürdüyə " bədənçə"də deyilirdi.

Qadın baş və ayaq geyimləri:

Baş geyimləri qadınlar üçün daima ləyaqət göstəricisi olmuşdur. Elmi ədəbiyyatda qadınların baş geyimləri iki yerə ayrılır: *geymə (qoyma) və bağlama (örtmə) formada verilir. Birinci qrup baş geyimlərinə tac, təsək, çutqu, araqçın, dingə ikinci qrupa isə fərqli ölçülərdə və müxtəlif adlarla adlandırılan ləçəklər,çalmalar, kələğayılar, şallar, örpəklər, rübənd, papaqqabağı, çadra, çarşab, duvaq və s. aiddir* [8,s.47]. *Qarabağda təsək // təsəx' növü kimi* ***araqçın//araxçın*** *geyiflər* [İnf. Şuşa, Bərdə.]. *Araqçınlar tikmə parçalardan tikilir, "quşgözü" və "güləbətin" tix'mə üsulu ilə bəzədilirdi, bı da onun möykəmliyini təmin edirdi* [İnf. Şuşa, Bərdə.].

Qarabağda yaşa və zövqə görə qırmızı, qara, ağ, palıdı yerli, yelənli kəlağayılar geniş

yayılmışdır. *Qarabağda "sallama" və "qızbaşı" deyilən baş bağlama üsulundan istifadə edilirdi* [8,s.49].Qadın baş geyimləri içərisində "örpək"lər də xüsusi yer tuturdu. Qarabağda və Şirvan bölgəsində "şalı-zər", "sərəndaz", "qəsəbə", "zərbaf", "qaz- qazı", "naz-nazı", "bəlalə", "xaralı", "alafa", "bənarə" kimi növləri geniş yayılmışdır.

Qadın ayaq geyimləri:

Toplama materiallarının təhlili və elmi ədəbiyyata nəzər saldıqda məlum olur ki, ənənəvi qadın geyim kompleksində ayaq geyimləri də xüsusi yer tutur. Bunlardan *corab, badış, çarıq, başmaq, şətəl, çust, nəleyin, məst, çəkmələr (dabanlı, uzunboğaz, yarımboğaz), quşkeçən, kəlik* və s. göstərə bilərik.

Qarabağ bölgəsi üçün corablar baş örtüyü kimi, abır- həya rəmzi sayılır, adətə görə, qadının ayağı görünməməlidir. Toxunma corabları "saya" (rezinli) və "bəzəkli" (rezinsiz) toxuyurdular. Corabı toxumaq üçün istifadə edilən milə "*sülü*" deyilirdi. Regionun "qarğağzı", "qoçbuynuzu", "dəhrəburnu", "gəldirgə", "göl", "quyrum" corab növləri geniş yayılmışdır. Qarabağda "keci corablar" da geyilirdi. Belə corablar qız evindən nişanlı qızların bəyə və onun sağdış və soldışına toxuyaraq verdikləri hədiyyə idi. Söyləyicilərin dediyinə görə, bu corablar adətən toy günü geyilər, sonralar isə yadigar kimi saxlanardı (inf. Şuşa).

Qarabağın ənənəvi ayaq geyimlərindən biri də "badış"dır. *Badış corab kimi toxunar; topuqdan yuxarı, dizdən aşağı olardı. Badış qatma (ip) ilə baldıra bağlanardı. Badışı həm qadınlar, həm də kişilər geyirdi* (inf. Cəbrayıl).

Arxası açıq, daban hissəsi hündür, pəncə üstü rəngli "müşkü" , "tumac" dan, altlığı isə göndən hazırlanan başmaqları ustalar "zənanə"; "miyanə"; "qız başmağı" adları ilə üç növdə hazırlayırdılar.

Qarabağın ən məşhur başmağı "Qala (Şuşa) başmağı" idi. "Etnoqrafiya fondunda Xan qızı Xurşudbanu Nətavanın öz əlləri ilə bəzədiyi başmaq nümunəsi tarixi və bədii əhəmiyyət kəsb edərək fondun qiymətli materiallarından hesab olunur" [1]. Gəncəbasar və Qarabağda formasına görə uzunboğaz və yarımboğaz, hündürdabanlı çəkmə növündən biri də "quşkeçən" adlanırdı. Oğlan evinin gəlin köçməli qıza göndərdiyi toy libasının içərisində "quşkeçən"nin olması vacib sayılırdı (İnf. Şuşa).

Qarabağdan Etnoqrafiya Fonduna daxil olan *"çul"* da (EF 1732) uzunboğaz çəkmədir. Ehtimal ki, "çulunu sudan çıxarmaq" deyimi də dizə qədər dəridən hazırlanmış çulun suda islanaraq ağırlaşmış vəziyyətdə sudan çıxarmağı bacarmaq kimi mənası (düşdüyü çətin vəziyyətdən çıxmağı bacarmaq) üzərində qurulmuşdur.

Qadınlar təsərrüfat işləri ilə məşğul olarkən, ayaqlarına geyindikləri **corab** və ya **badışın** üzərindən çarıq da geyinirdilər. Qadın və kişi çarıqları ölçüsünə görə fərqlənirdi.

Məst ev şəraitində geyilən yüngül ayaq geyimi idi.Şəhər və kənd qadınları altı aşılanmış dəridən "çust" da geyinirdilər.ev şəraitində "nəleyin" və "kəlik" də geyinirdilər. Ev təsərrüfatı işləri ilə məşğul olarkən, köhnəlmiş ayaqqabıların dabanlarını kəsib və ya tapdayaraq geyinməklə Qarabağ şivələrində müxtəlif adlarla adlandırırlar (Şap-şap, sürütmə, çəkələk) (inf. Ağdam, Cəbrayıl).

Toxunma yun corabın altına keçə və dəri tikməklə *"şətəl"* adlandırılan ayaq geyimi hazırlanırdı.

Kişi geyimləri:

Qarabağ bölgəsi əhalisinin istifadə etdiyi kişi geyimləri alt (can) və üst köynəyi, dizlik, şalvar, arxalıq, can arxalığı, (içlik, pambıqlı), Çuxa, kürk, yapıncı eləcə də fərqli biçimdə və adda baş və ayaq geyim dəstini təşkil etmişdir.

Geyimlər gündəlik və mərasimlik (xeyir-şər paltarı) kimi iki dəst hazırlanırdı.

XIX əsrin 80-ci illərinə aid bir mənbədə deyilir ki, Cəbrayıl qəzasında kişi geyimləri ağ və göy bezdən hazırlanırdı. Geyim növlərinin adı "gödək alt köynəyindən, bel yerində nifəsi (ip yeri

H.M) olan dizlikdən, qış aylarında geyilən enli yun şalvardan, üst köynəyindən, onun üstündən geyilən arxalıqdan və arxalıq üstündən geyilən çuxadan ibarət olduğu göstərilir və baş geyimi kimi qoyun dərisindən hazırlanan konusvari papaqdan, ayaq geyiminə gəldikdə, bu tip geyimlər qısa yun corab, aşılanmış öküz və yaxud da kəl dərisindən tikilən çarıqdan ibarət olduğu qeyd olunur" [20,s.13]. Kişi alt paltarının digər elementi də "dizlik" idi. Dizlik dizə qədər olur, bədəni sıx tuturdu. "Cəbrayıl şivəsində bu geyim növünə "mezər" də deyilir" [6,s.268].

Kişi üst geyimləri iki qrupa bölünür: beldə saxlanan və çiyinə geyilən geyim. Birinci qrup geyim növünə şalvarı, ikinci qrup geyimlərə isə üst köynəyi, can arxalığı, arxalıq, çuxa, kürk, yapıncı (bəzi şivələrdə kəpənək də adlandırılır) və s. daxildir. Şalvar tikiş üslubuna görə dizlikdən fərqlənmirdi, lakin balaqları enli və topuğa qədər olmasına görə fərqlənirdi. Əhali arasında "nifəli şalvar"; "musurmanı şalvar" adlandırılırdı, Varlıların geyindiyi "urusu şalvar","qalife şalvar" lar da dəbdə olmuşdur. *Peşə fəaliyyəti və zümrə mənsubluğu şalvarın balağının hansı formada qalmağından da bəlli olurdu. Demək olar ki, bu daha çox praktiki əhəmiyyət daşımışdır. Məsələn, maldar və az miqdarda əkinçiliklə məşğul olan kəndlilər soyuqdan qorunmaq və şalvarın balağının çirklənməməsi üçün şalvarın balağını corabın içinə salır və üstündən dolaq çəkirdilər. Xüsusilə çobanlar göstərdiyimiz əməli əhəmiyyət üçün dolağı diz qapağınadək sarıyırdılar*[10,s.72]. "can arxalığı" Qarabağ kişilərinin köynəyin üstündən geyindikləri geyim növüdür. Bəzən Qarabağda bu geyim tipini "bəlyə" də adlandırırdılar. "Kitabi- Dədə Qorqud" dastanında çuxanın "adi" və "doqquzlama" çuxa növlərinin olduğuna rast gəlirik" [3,s.77]. Çuxanın rənginə bir mistik yanaşma da mövcud idi. Xalq arasında *ağ çuxa – ağ günün, yaxşı yaşayışın, qara çuxa bəxtin gətiməməsi, qara günün başlaması kimi mənalandırılır* (Cəbrayıl, Şuşa).

Mövsümü səciyyəli kişi geyimləri arasında "Kürk" də əhəmiyyətli yer tutur.

"Kürkü əziz qonaqlara hədiyyə kimi də bağışlayırdılar və miras kimi də atadan oğula ötürülürdü" [8,s.63]. Mahmud Kaşğarinin " Divani lüğət-it-türk"ündə də göstərilir ki, türk xalqlarında quzu dərisindən tikilən və "içmək" adlandırılan kürklər də geniş yayılmışdır. " Onlar həmçinin samur və sincab dərisindən tikilən və "içuk" adlanan kürk də geyinirdilər" [7,s.55].

Azərbaycanın bütün etnoqrafik bölgələrini əhatə edən və heyvandarlıqla məşğul olanların üst geyim tipi olan yapıncıdan da geniş istifadə olunurdu. Muğan bölgəsində onu **bürüncək**, "Qarabağda isə **Kəpənək** adlandırırdılar.

Kişi baş geyimləri: Baş geyimləri ənənəvi kişi geyimlərinin mühüm elementidir. Qeyrət və namus simvolu olan papaqla bağlı bir çox tabular da var. Məs., Qarabağ kişilərinin camaat arasında, ailədə başıaçıq gəzmək yaxşı qarşılanmamış, qonağı başıaçıq qarşılamaq hörmətsizlik əlaməti olmuş, papağı çevrilmiş vəziyyətdə münasib olmayan yerə qoymazmışlar, papağını itirmək və ya oğurlatmaq tək şəxsin özünün yox, onun nəslinin də təhqir edilməsi kimi dəyərləndirilirdi. Papaqçılar papağın gövdə, tərk və astar hissələrini ayrılıqda işləyib sonradan birləşdirir və papağı tikirlər. *Bir qayda olaraq, yaşlı nəslə mənsub olanlar uzun, 8 girvənkə (3,2 kq H.M) ağırlığında, konusşəkilli, ucu şiş, cavanlar və uşaqlar isə "qarabağ fasonlu"yüngül dairəvi papaqlar geyirdilər* [16,s.60]. Kişi baş geyimlərindən biri də ***başlıq*** adlanırdı. ***Başlığı*** ilin soyuq aylarında və şaxtalı havalarda uzaq səfərə gedənlər və yüksək dağlıq ərazilərdə yaşayanlar papağın üstündən geyirdilər.

Kişi ayaq geyimləri: Tədqiq etdiyimiz bölgənin kişi əhalisinin istifadə etdiyi ayaq geyimlərinin müxtəlif növləri olmuşdur: *çarıq, başmaq, dübəndi, uzunboğaz çəkmə (xrom çəkmə), çust, məst, corab, patava, dolaq, badış və s. dən ibarət idi və ülgü adlanan qəlib,biçim əsasında tikilirdi* [8,s.68].Qarabağda kənd əhalisinin böyük əksəriyyətinin geyindikləri ayaqqabı növü aşılanmış dana, at və uzunqulaq gönündən hazırlanan çarıq olurdu. Çarığı əksər hallarda burnunun quruluşuna – formasına görə fərqləndirirdilər: quşburnu, təkburun, çütməburun, üçburun kimi adlarla ifadə olunur. Çarıq tikmək işində çarıqçılığa aid bir sıra peşə-sənət sözləri – terminləri (körpü, üzəngi (gözək), köşə-iplik (sirim, duvula, cirə) istifadə edilirdi (İnf. Şuşa). Çarıq ayağa "çarıqbağı" vasitəsilə bağlanırdı. Məst – yumşaq aşılanmış dəridən altlıqsız hazır-lanırdı. Dabanı

açıq olan başmaqdan fərqli olaraq çust adlanan geyimin daban çevrəsi bağlı olurdu. Ayaqlığı başmaqla eyni olan "boğazdı" nın (uzunboğaz çəkmə) (varlı, kişilər arasında dəbdə idi).Yuxarı hissəsi bahalı material sayılan tumac, xrom və müşküdən tikilirdi.

Dübəndi adlanan kişi ayaq geyiminin də altına göndən altlıq çəkilir və dabanına nal vurulurdu (inf. Şuşa).

Qarabağın uşaq geyimləri:

Qarabağın ənənəvi geyimlərinin tərkib hissələrindən biri də uşaq geyimləri tutur. Uşaqların da geyimləri böyüklərinki kimi eyni biçim və tikiş texnikası ilə kiçik formada tikilirdi. "Lakin uşaqlara "çağa" vaxtlarında müəyyən yaş həddinədək böyüklərin geyimindən fərqli geyimləri geyindirirdilər.Uşaq doğulan gündən qırx gün keçənədək bələkdə olan "çağa"ya "qırx köynəyi" və "qırx papağı" adlanan geyim geydirirdilər" [15,s.73].

Körpə uşaq iməkləyənədək bələkdə saxlanırdı. Bələk bir-birindən azca böyük yumşaq 6-7 ədəd parçadan hazırlanırdı. Bütün parçalar uşağın bədəninə sarındıqdan sonra, təxmini ölçü olaraq 1 metr yarım (1,5 metr) uzunluqda "bələk ipi" // "bələk bağı" vasitəsilə "çalkeçir" edə-edə bələyi ayaqdan başa doğru bağlayırdılar.Uşağın əlinin birini, bəzən də hər ikisini bələkdən çöldə qoyurdular və əlinə torba kimi qolları büzməli əlcək keçirirdilər. Xalq inancına görə uşağı *"beşik quşu"* vurmasın deyə uşağı beşiyə qoyarkən üzünə nazik cuna salırdılar. (İnf. Füzuli).

Qarabağda uşaq şalvarının bağlı"/nifəli, aşırmalı və finka adlandırılan üç növü fərqləndirilmişdir. "Uşaq geyimlərinə əlavə edilən tikmə bəzəklər və naxışlar bəzək atributu kimi istifadə edilirdi. *Rəngli şüşələr, qiymətli daşqaş və metallardan hazırlanmış muncuqlar* (**göz muncuğu**- bəd nəzərdən, **sarılıq** muncuğu – sarılıq xəstəliyinə tutulmaqdan qoruduğu ehtimal edilən, mədə ağrısından qoruyan - **möhrə muncuğu**, soyuqdəymədən qoruması sınanan - **qusuntu muncuğu**, qarabasmadan qoruduğuna inanaraq **göyətmə** və **şəvə** muncuğunu uşağın geyiminə asırdılar), *üçkünc dualar, "boylama" adlanan dördkünc dualar, tısbağa kürəyi, dağdağan çiliyi asma bəzək növlərindən əlavə uşağı xəstəliklərdən (bədnəzərdən), şər qüvvələrdən qorumaq məqsədi güdürdü* [14,s.217].

Qarabağda keçmiş dövrün bəzi uşaq geyimləri və bəzək elementləri istifadədən çıxdığı üçün onlarla bağlı inanclar və mərasimlər də unudulmaqdadır.

ƏDƏBIYYAT

1. Abdulova G.S. XIX əsrin sonu, XX əsrin əvvəllərində Qarabağda sənətkarlar (tarixi – etnoqrafik tədqiqat) / Namizədlik diss. Aftoreferat. Bakı, 2005.

2. Dünyamalıyeva S.S. Azərbaycan geyim mədəniyyəti tarixi. Bakı, Elm, 2002.

3. Əhmədov Ə.K. Dədə-Qorqud dastanında bəzi geyimlər haqqında // Azərb. SSR EA-nın məruzələri.1979. XXXV cild №2 səh.77

4. Əsədova Ə.A. Orta əsr Azərbaycan geyimləri ("Kitabi-Dədə Qorqud" dastanları əsasında) Dünya azərbaycanlıları:tarix və müasirlik(elmi-nəzəri toplu) II buraxılış, Bakı, 2004.

5. Gəncəvi Nizami. Sirlər xəzinəsi, Bakı, Elm,1981

6. Hacıyev T. Seçilmiş əsərləri. III cild. Bakı.Elm.2018,412 s.

7. Xudiyev N. Mahmud Kaşğarlının "divan"ı haqqında düşüncələr. // Dirçəliş XXI əsr, № **9**, 2002, səh. 55.

8. Qarabağ geyimləri (F.Vəliyev, G. Abdulova). Kataloq. Bakı, Elmin İnkişafı Fondu. 2016. 352 səh.

9. Məmmədov İ.O. Azərbaycan dilinin etnoqrafik leksikası. Bakı, Elm və Təhsil, 2009. 272 s.

10. Mustafayev A.N. Şirvan maddi mədəniyyəti.Bakı,1977.

11. Vaqif M.P. Əsərləri. Bakı,Yazıçı, 1988.

12. Vəlixanlı N.M. Ərəb Xilafəti və Azərbaycan. Bakı,1993.

13. Vəliyev F.İ. Geyimlər və bəzəklər/ Azərbaycan etnoqrafiyası , üç cilddə, II cild.Bakı, Şərq-Qərb, 2007.

14. Vəliyev F.İ. Azərbaycanın uşaq geyimləri və bəzəkləri, onlarla bağlı bəzi adətlər, inamlar, mərasimlər (XIX-XX yüzillik) Tarix və onun problemləri № 3, Bakı, 2005, səh.217.

Rus dilində

15. Велиев Ф. И. Материалъная култура. Западной зоны Азербайджана в XIX начале XX В Баку, Элм, 1996.

16. Заднидзе Я., Захарбеков С.Тер- Ечиазаров А. Елисаветполъслфя губерния, город Шуша // СМОМПК, вып XI, Тифлисъ 1891.

17. Каракашлы К.Т. Материалная кулътура азербайджанцев. Баку.1964, 133 с.

18. Мамедова Б.Р. Названия одежды в азербайджанском языке канд.досс., Баку,1992,145 с.

19. Олеари А. Описание путешествия в Московию в Персию и обратно (пер.П Барсова М: 1870 с.698-699)

20. Уразов Г. В. Медика –топографический очерк Джебраильского уезда Елизаветпольской губернии / Медицинский сборник, Издавиемый императорским Кавказским медицинским обшеством.Тифлис, 1889, № 50.с.13

21. Этерлей Е.Н. Об этнографизмах их место в диалектом словаре Диалектная лексика Л. 1974.